# UNİKAL

№42 (2176) 17 noyabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev   www.unikal.az   unikal-1@mail.ru


# Azərbaycan Vaşinqtona "rest" çəkdi: Çözüm "3+2" formatında olacaq




Səh.2



## Elman Rüstəmovun yüz minlərlə manatlıq yanlışına düzəliş...

*"Ölkənin 1 nömrəli rəsmi ödəniş resursu - Hökumət Ödəniş Portalı (HÖP) bağlanacaq. Bu haqda resursun saytında (gpp.az) belə bir elan dərc olunub". Bunu Azərbaycan İnternet Forumunun prezidenti, Multimedia Mərkəzinin direktoru Osman Gündüz deyib.* Onun sözlərinə görə, resursun sahibi Azərbaycan Mərkəzi Bankıdır (AMB). Ekspertin haqqında bəhs etdiyi elanda bildirilir ki, Azərbaycandakı bankların, əksər bank olmayan ödəniş xidməti təchizatçılarının internet və mobil bankçılıq həllərinin Hökumət Ödəniş Portalına (HÖP) inteqrasiya edildiyi, bütün xidmət təşkilatları üzrə ödənişlərin bu platformalardan aparılması imkanı olduğu nəzərə alınaraq 10 yanvar 2024-cü ildən HÖP-ün internet səhifəsinin (//gpp.az) və mobil tətbiqinin fəaliyyəti dayandırılacaq. Bu barədə AMB məlumat yayıb.

Səh.8

## "Təhsil sistemində peşəkar kadrlar lazımdır"



*Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, təhsil sahəsində hansı islahatların lazım olduğundan, repetitorluğun təhsilə yaratdığı problemlərdən, müəllimlərin maaşlarından, Bakıdakı məktəblərdəki sıxlıqdan və başqa məsələlərdən danışıb.*

Səh.4

## Oqtay Şirəliyevin klinikası borc içində...



*İcbari Tibbi Sığortanın tətbiqindən sonra bir sıra özəl klinikalarda pasiyent çatışmazlığı yaranıb. Bu da tibb ocaqlarında maliyyə böhranına səbəb olub. Ona görə bir sıra böyük klinikaların fəaliyyətinin dayandırılacağı gözlənilir. Bu barədə məlumat yayan "Medicina.az" onlardan bəzilərinin adlarını təqdim edib.*

Səh.5

## Azərbaycan demoqrafik partlayışın astanasında



*Azərbaycanda "qız yükü, duz yükü", "qız ağacı, qoz ağacı" kimi məsələlər hələ ötən əsrdə istifadə olunsa da, ölkəmizin hazıkı demoqrafik mənzərəsi bu gün də qız uşaqlarının doğulmasına yük kimi baxan ailələrin olduğunu təsdiqləyir. BMT-nin Əhali Fondunun baş müşaviri Fərid Babayev...*

Səh.11

# Ərindən boşanan Sevda: "Mənim üçün onlar kişi deyil"



***"Uzun illərdir ki, həyat yoldaşımdan ayrılmışam. Son 2 ildir ki, aliment alıram. 8000 manat aliment pulu yığılıb. Şəxsi düşüncəm belədir ki, ata mütləq şəkildə aliment ödəməlidir. Çünki əgər uşaqlar anada qalıbsa, deməli, məsuliyyət, xərclər ananın üzərindədir. Ödənilən aliment uşağın nəyinə bəs edir ki? Amma ata ən azından bunu etməlidir".***

Bu sözləri müğənni Sevda Sanəliyeva qonaq olduğu "Günə son" ictimai-sosial verilişində deyib. Sənətçi bildirib ki, keçmiş həyat yoldaşı hər ay 170 manat aliment ödəyir: "Ataların aliment ödəməklə araları yoxdur. Ayrılanda uşaqlarıma baxa biləcək gücdə idim. İstədim ki, o yalnız uşaqlarına atalıq etsin. Əksər kişilərdə elə bir düşüncə var ki, əgər ayrılırlarsa, uşaqlarından da ayrılırlar. Boşananda da elə bilirlər ki, uşaqlarından da boşanırlar. Axı uşaq sənin də, mənim də uşağımızdır. Uşaqlarımın atasına çox şans verdim, şərait yaratdım ki, onlarla görüşə bilsin. Hətta buna görə bir neçə il də səbr etdim. Alınmadıqdan sonra dedim ki, o zaman aliment ödənilsin. Sonra gördüm ki, o, aliment çox yığılıb. İstədim, tələb etdimg O da xahiş etdi ki, imkanı yoxdur. Aliment verməyən kişilərə kişi deməyək. Çünki aliment verilməlidir. Vermirsə, mən o kişiyə kişi kimi baxmıram. Keçmiş həyat yoldaşım aliment verməmək üçün deyib ki, xəstəyəm. Allah şəfasını versin".

Qeyd edək ki, S.Sanaliyeva iki dəfə ailəli olub. Onun iki övladı var.

# Mənzurədən Rühəngizə hörmətsizlik: "Bağışlamayacağam"



***"Elgizlə izlə" verilişində Əməkdar artist Ruhəngiz Allahverdiyeva və müğənni Mənzurə Musyaeva arasında gərgin anlar yaşanıb.***

R.Allahverdiyeva düzəltdiyi güzgüləri proqramda satışa çıxardıb. Mənzurə isə efirə zəng edərək, onlardan birini almaq istədiyini deyib. Qiymətin 300 manat olduğunu eşidən ifaçı dəstəyi yerə asıb. O, telefonu söndürüb, zənglərə cavab verməyib.

Buna əsəbiləşən Elgiz "Mənzurə çox zəngin qadındır. Özü bu verilişdə olanda söyləyib. Yenə də özünə qismət olsun. Bir az da bol olsun. Heç olmasa yalandan deyərdin ki, rayondan toydan gəlim alaram. Sənə zorla güzgü aldırası deyiləm. Amma Mənzurə bu gün çox böyük hörmətsizlik elədi. Mən ona bu hörmətsizliyi bağışlamayacağam. Mənzurə, səni bu gündən yazdım "qara siyahı"ma. 300 manat nə olan şeydir? Dünyanın malı dünyada qalır. 7 yetimlə bir dərədə qalmamısan" sözlərini söyləyib.



# "Həyat yoldaşımı başqa xanımla görsəm, gözümü yumub keçərəm" - Yeganə

***Müğənni Yeganə Mürsəlovanın xəyanətlə bağlı açıqlaması müzakirələrə səbəb olub.***

Axşam.az xəbər verir ki, "Rəngarəng səhər" verilişinə qonaq olan sənətçi həyat yoldaşının xəyanətini bağışlayacağını deyib: "Ailə elədir ki, hər şey evin içində qalmalıdır. Xanım da bəzi şeyləri udmalıdır, bəylər də. Balalara xatir olmalıdır".

Yeganə aparıcının "Bilsəniz ki, həyat yoldaşınızın həyatında başqa qadın var, bağışlayarsınız" sualına "Gəlib özü desə ki, başqa xanımla həyatımı davam edirəm, çıxıb gedərəm. Amma özüm görsəm, gözümü yumub keçərəm. Oğlum özüm boydadır" cavabını verib.

Qeyd edək ki, Yeganə Fatih Akbudak adlı Türkiyə vətəndaşı ilə ailəlidir. Cütlüyün Ömər adlı oğlu var.

# İnfarkt keçirən Musa Musayev: "Təranə olmasaydı, öləcəkdim"

***Bir müddət əvvəl qəfil ikinci dəfə infarkt keçirən müğənni Musa Musayev bir illik fasilədən sonra ilk dəfə efirə çıxıb.***



"Unikal" bizim.media-ya istinadən bildirir ki, sənətçi qonaq olduğu "Tarixin bir günü" verilişində səhhətindən söz açıb.

Musa bildirib ki, həyat yoldaşı Təranə onu ikinci dəfə həyata qaytarıb: "Həyat yoldaşım Təranə xanım olmasaydı, dünyamı dəyişəcəkdim. İllər əvvəl anju olunmuşdum və daha sonra ürəyimə stend qoyulmuşdu. Göydə Allah, yerdə isə Təranə xanım məni bu vəziyyətdən çıxardı. Vəziyyətim həddən artıq pis idi. Çox ağır idi. Qubadan Bakıya məni huşsuz vəziyyətdə təcili tibbi yardım maşının köməyi ilə gətirdilər.

Diaqnozum infarkt idi. Ürəyimdə üç ədəd stend var. Bu yaxınlarda da yenə ürəyimdə sancılar oldu. Məlum oldu ki, ürəyimin arxasına su yığılıb. Buna görə də kəskin ağrılarım vardı. Həkimlər mənə sistem qoydular və dərmanlar içdim".

# Türk filmində baş rola dəvət aldı

***Əməkdar artist Mehriban Xanlarova Türkiyəyə yollanıb.***

Bu barədə sənətçi sosial şəbəkədə məlumat yayıb. O, qardaş ölkədə lentə alınan filmdə baş rola dəvət aldığını bildirib: "Səfərim Türkiyənin İstanbul şəhərinədir. Qardaş ölkədə filim çəkilişi ilə bağlı baş rola dəvət almışam. Hər kəsə bol-bol uğurlar arzulayıram. Çəkiliş zamanı paylaşım edəcəyəm".

UNI-40_27 IYUI-QARA.qxd 11/16/2023 10:09 PM Page 3





# İnstitut direktoru prorektorun qətlini sifariş verdiyinə görə həbs olundu

***12 il əvvəl törədilmiş qəsdən adam öldürmə cinayəti üzrə daha 2 şəxs məsuliyyətə cəlb edilib.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, "Elm və Təhsil Mərkəzi Təfəkkür Universiteti"nin prorektoru Tariyel Əhmədovun 16 sentyabr 2011-ci il tarixdə qəsdən öldürülməsi faktı ilə bağlı başlanmış cinayət işi üzrə cari ilin aprel ayında Dəyanət Quliyev Cinayət Məcəlləsinin müvafiq maddəsilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə iş üzrə əhəmiyyət kəsb edən halların müəyyən olunması istiqamətində tədbirlər görülür.

Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən birgə keçirilən çoxsaylı istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayət əməlinin sifariş əsasında törədilməsinə dair sübutlar əldə edilib.

Belə ki, cinayət hadisəsinin baş verdiyi vaxt qeyd olunan təhsil müəssisəsinin rektoru vəzifəsində işləmiş, hazırda isə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun icraçı direktoru və həmin İqtisadiyyat İnstitutu nəzdində İqtisad elmləri sahəsində doktorluq dissertasiya şurasının sədri vəzifəsində çalışan Müşviq Atakişiyevin zərərçəkmiş şəxs Tariyel Əhmədovu işgüzar nüfuzuna və rektor vəzifəsində qalmasına maneə kimi qəbul etməsi, bu səbəbdən qisas məqsədilə pul müqabilində onun öldürülməsini öz qohumu Dəyanət Quliyevə sifariş verməsi, sonuncunun isə həmkəndlisi Samir Quliyevlə birgə cinayət əməlini törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Müşviq Atakişiyev (sifarişçi) və Samir Quliyev (icraçı) iş üzrə Cinayət Məcəlləsinin 120.2.5-ci (tamah məqsədilə qəsdən adam öldürmə) maddəsilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, məhkəmənin qərarı ilə Müşviq Atakişiyev barəsində vəzifədən kənarlaşdırmaqla həbs, Samir Quliyev barəsində isə həbs qətimkan tədbiri seçilib.

# Teymur Musayev Kubada işgüzar səfərdədir

***Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyəti Kuba Respublikasında işgüzar səfərdədir.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyətini Kuba Respublikasının Baş naziri Manuel Marrero Kruz qəbul edib.

Görüşdə Kuba Respublikasının Baş naziri Azərbaycan və Kubanın tarixi milli liderləri arasındakı münasibətlərin xalqlar arasındakı əlaqələrin səviyyəsinə əhəmiyyətli təsirini qeyd edib və bundan məmnunluğunu bildirib.

Baş nazir Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Qoşulmama Hərəkatının beynəlxalq arenadakı nüfuzunun yüksəldiyini və aparıcı siyasi qüvvəyə malik təşkilata çevrildiyini xüsusilə vurğulayıb.

Manuel Marrero Kruz son dövrlər ölkələr arasındakı təmasların artdığını və müxtəlif sahələrdə birgə əməkdaşlıq üçün geniş perspektivlərin olduğunu qeyd edib.

Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev səmimi qəbul və qonaqpərvərliyə görə Kuba Respublikasının Baş naziri Manuel Marrero Kruza təşəkkürlərini bildirib. Nazir, bu səfərin ölkə rəhbərləri arasındakı münasibətlərin məntiqi nəticəsi olduğunu qeyd edib.

# Elman Rüstəmovun yüz minlərlə manatlıq yanlışına düzəliş...

## Sabiq baş bankirin yaratdığı inhisarçı resurs ləğv olunur - İlginc təfərrüatlar

***"Ölkənin 1 nömrəli rəsmi ödəniş resursu - Hökumət Ödəniş Portalı (HÖP) bağlanacaq. Bu haqda resursun saytında (gpp.az) belə bir elan dərc olunub". Bunu Azərbaycan İnternet Forumunun prezidenti, Multimedia Mərkəzinin direktoru Osman Gündüz deyib.***

Onun sözlərinə görə, resursun sahibi Azərbaycan Mərkəzi Bankıdır (AMB).

Ekspertin haqqında bəhs etdiyi elanda bildirilir ki, Azərbaycandakı bankların, əksər bank olmayan ödəniş xidməti təchizatçılarının internet və mobil bankçılıq həllərinin Hökumət Ödəniş Portalına (HÖP) inteqrasiya edildiyi, bütün xidmət təşkilatları üzrə ödənişlərin bu platformalardan aparılması imkanı olduğu nəzərə alınaraq 10 yanvar 2024-cü ildən HÖP-ün internet səhifəsinin (//gpp.az) və mobil tətbiqinin fəaliyyəti dayandırılacaq. Bu barədə AMB məlumat yayıb.

"HÖP-ün internet səhifəsi və mobil tətbiqi vasitəsilə apardığınız ödənişləri bankların, həmçinin bank olmayan ödəniş xidməti təchizatçılarının bu portala inteqrasiya olunmuş internet və mobil xidmətləri vasitəsilə həyata keçirə bilərsiniz", - deyə məlumatda qeyd olunub.

O.Gündüz isə Hökumət Ödəniş Portalının bağlanmasını sektorun inkişafı baxımından çox diqqətçəkən və əhəmiyyətli bir hadisə kimi qiymətləndirib. Sitat: "Vaxt vardı ki, Mərkəzi Bank özünün bu resursuna görə heç kimə imkan vermək istəmirdi ki, hökumət ödənişlərini reallaşdırsın. İllər öncə bu sahədə əsil inhisarçı mühit yaratmışdılar .

Hətta xatırlayıram ki, bu inhisarçılığın aradan qaldırılması, fintex ekosistemə məhdudiyyətlərlə bağlı bir yazımıza görə biz ciddi təpkilərlə üzləşmişdik, Mərkəzi Banka dəvət etmişdilər.

Artıq AMB-nin İdarə Heyətinin sədri Taleh Kazımov onun fəaliyyətinin dayandırılması ilə bağlı göstəriş verib.

Güman ki, onun hazırlanmasına da yüz minlər xərclənmişdi.

Əminəm ki, bununla fintex ekosistem daha da inkişaf edəcək".

O. Gündüz bank sektorunda antiinhisar addımlarını, fintex ekosistemin inkişafı istiqamətində tədbirləri yetərincə təqdirəlayiq qiymətləndirib.

Xatırladaq ki, Hökumət Ödəniş Portalı (HÖP) - dövlət orqanları tərəfindən göstərilən elektron xidmətlər üzrə ödənişlərin elektron qaydada toplanılmasının təmin edilməsi, büdcə ödənişlərinin aparılması prosesinin sadələşdirilməsi və birbaşa emalının təşkili, kommunal, rabitə, sığorta və digər ödənişlərin vahid platformadan toplanılmasının təmin edilməsi məqsədilə AMB-nin sabiq rəhbəri Elman Rüstəmovun zamanında, təxminən 10 il öncə yaradılıb. Həmin vaxt bildirilirdi ki, HÖP-ün yaradılmasında başlıca məqsədlərdən biri Milli Ödəniş Sistemi infrastrukturundan daha səmərəli istifadənin təmin olunması, ölkənin bütün regionlarında elektron ödəniş xidmətlərinə çıxış imkanlarının genişləndirilməsidir.

Lakin sonradan bu resurs fintex ekosistemdə inhisarçı mövqe sahibi olduğu üçün tənqidlərə tuş gəlməyə başladı. İqtisadçılar açıq şəkildə bəyan etdilər ki, Elman Rüstəmov bu məsələdə özünü tənzimləyici qurumun rəhbəri yox, maraqlı tərəf kimi aparır - E-ödəniş sisteminə yeni oyunçuların cəlb olunmasını və bu seqmentə normal rəqabət mühitinin yaradılmasını əngəlləyir. Yəni qeyri-bank təşkilatlarının bazara daxil olmasına imkan verən qanun layihəsini hazırlamaqdan de-fakto boyun qaçırır.

Bir müddət öncə isə Osman Gündüz sözügedən mövzu ilə bağlı başqa bir açıqlamasında



uzun illər ənənəvi, konservativ bank sisteminin yeni fintex ekosistemin formalaşmasına ögey münasibət bəslədiyini, hətta bir çox hallarda buna mane olduğunu bildirmişdi. "Əvvəllər Mərkəzi Bank daim sektorda özünün hegemon rolunun saxlanılmasında maraqlı olub. On illər ərzində fintex ekosistem üçün oyun qaydaları müəyyən edən "Ödəniş sistemləri və ödəniş xidmətləri haqqında Qanun layihəsinin qəbuluna imkan verilməyib. Yalnız AMB-nin yeni rəhbərliyinin təşəbbüsü ilə Milli Məclisdə müzakirəyə çıxarılıb və artıq bu qanun Prezident tərəfindən də təsdiqlənib. Bundan sonra fintexlər də lisenziya ala biləcəklər" deyən ekspert əlavə edib ki, rəqəmsal bankçılıqda, açıq bankçılıqda problemlər xeyli müddət davam edib.

Mütəxəssisin də vurğuladığı kimi, bir neçə ay öncə "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanun Azərbaycan Prezidentinin fərmanı ilə təsdiqlənib. Həmin vaxt bildirilirdi ki, sözügedən qanun rəqəmsal ödəniş ekosistemində innovativ həllərin tətbiqinə əsaslanan yeni inkişaf dövrünün başlanılmasını təmin edəcək. O da vurğulanırdı ki, fintexlər yeni və daha innovativ ödəniş xidmətlərinin göstərilməsini əldə edəcəklər. Qanunun bu xüsusiyyəti ekosistem iştirakçıları arasında rəqabətin daha da artmasına və ödəniş xidməti istifadəçiləri olan istehlakçıların ehtiyaclarını qarşılayacaq innovativ həll və texnologiyaların tətbiqinə imkan verəcək.

Məhz sözügedən qanunun təsdiqlənməsinin ardından Hökumət Ödəniş Portalının bağlanması barədə qərar verilməsi təəccüblü deyil. Bununla da antiinhisar istiqamətində daha bir mühüm addım atılmış olacaq. Sağ əli digər inhisarçıların başına!

***Sənan Mirzə***

UNI-40_27 IYUI-QARA.qxd 11/16/2023 10:09 PM Page 4



# Rəsmi Bakı Vaşinqtona “rest” çəkdi: Çözüm “3+2” formatında olacaq

## Keçmiş xarici işlər naziri: “Bizim Vaşinqtona, Moskvaya, yaxud Brüsselə getməyimizə ehtiyac yoxdur, Ermənistana da başa salmalıyıq ki, ən yaxşı variant bizim birbaşa danışıqlar aparmağımızdır

***15 noyabr 2023-cü il tarixində ABŞ dövlət katibinin köməkçisi Ceyms O’Braynın Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində səsləndirdiyi birtərəfli və qərəzli fikirlər səmərəsiz, əsassız və qəbuledilməzdir.***

”Unikal” xəbər verir ki, bu barədə XİN-in ABŞ dövlət katibinin köməkçisi Ceyms O’Braynın Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində verdiyi əsassız açıqlamalarına dair şərhində deyilir.

”Dinləmələri və səsləndirilən çıxışları Azərbaycan və ABŞ arasında ikitərəfli və çoxtərəfli formatlarda münasibətlərə zərbə kimi qiymətləndiririk. Azərbaycana qarşı səslənən ittihamlar əsassız olmaqla yanaşı, regionda sülh və təhlükəsizliyi sarsıdır. 19-20 sentyabrda Azərbaycanın antiterror tədbirlərinə gətirib çıxaran son vəziyyət və hadisələrə münasibət bildirən Dövlət Departamentinin nümayəndəsi Azərbaycanın bu addımlarına səbəb olan əsas problemin, yəni beynəlxalq hüququn norma və prinsiplərinə, habelə 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanata zidd olaraq ərazilərimizdə 10.000-dən çox erməni silahlı qüvvələrinin qanunsuz mövcudluğu məsələsinə etinasız yanaşıb. Üstəlik, Azərbaycan tərəfi bütün, o cümlədən ABŞ-la keçirilmiş görüşlərdə sözügedən qüvvələrin bölgədə təhlükə mənbəyi olduğunu dəfələrlə qeyd edib və onların dərhal çıxarılmasına çağırış edib. Bundan əlavə, ABŞ tərəfi sülh prosesinin irəliləməsinin vacibliyindən bəhs edərkən Ermənistanın artıq iki aydan çoxdur ki, Azərbaycanın sülh sazişi ilə bağlı təkliflərinə cavab verməyərək, prosesi ləngitdiyini unudur. Baza prinsiplər, habelə sülh sazişinin imzalanması, o cümlədən sərhədlərin demarkasiya və delimitasiyası, həmçinin kommunikasiya xətlərinin açılması əsasında sülh prosesini başladan tərəfin Azərbaycan olmasına baxmayaraq, dövlət katibinin köməkçisi son 3 il ərzində bu istiqamətlər üzrə göstərilən səylərin Ermənistan tərəfindən sarsıldığını və manea törədildiyini qeyd etməkdən çəkinib. Ermənistandan fərqli olaraq, Azərbaycan, 6 oktyabr 2022-ci il tarixində Praqada baş tutan görüş zamanı da bir daha təsdiqləndiyi kimi, hər zaman Ermənistanın suverenliyi və ərazi bütövlüyünə hörmət edib.

Azərbaycan nəinki 2020-ci ilin 44 günlük müharibəsindən sonra, hətta ərazilərinin işğal olunduğu 30 ilə yaxın müddət ərzində də beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən sülh prosesinə sadiq olub. Əksinə, vasitəçilərdən biri olan ABŞ tərəfi, təcavüzkar və regionda sabitliyin pozulmasına səbəb olan Ermənistana beynəlxalq hüquqa uyğun davranması ilə bağlı heç vaxt çağırış etməməklə bağlı da məsuliyyət daşıyır. Bundan əlavə, ABŞ, separatçı rejimi dəstəkləyən tərəf olaraq, sözügedən rejimi rəsmi olaraq maliyyələşdirən və müntəzəm şəkildə onların ABŞ-a səyahətlərini və ABŞ rəsmiləri ilə görüşlərini təşkil edən yeganə ölkə olmaqla, ikili standart yanaşmasının qarşısını almamağa görə də cavabdehdir.

Region ölkəsi olmayan ABŞ öz addımları və bəyanatları ilə bölgə ölkələrinin nəqliyyat təhlükəsizliyi səylərinə zərbə vurur. ABŞ tərəfinə yaxşı məlumdur ki, Ermənistanın 2020-ci il Üçtərəfli Bəyanatın 9-cu bəndindən irəli gələn öhdəliklərini yerinə yetirməməsi Azərbaycanı alternativ yolların tikintisi ilə bağlı qərar qəbul etməyə sövq edib. Qonşu dövlətlərlə kommunikasiya xətlərinin çəkilməsi qaydasının razılaşdırılması, o cümlədən İranla Naxçıvan Muxtar Respublikasına marşrutla bağlı müqavilə Azərbaycanın suveren hüququdur. Bunun fonunda, Azərbaycan da regionun təhlükəsizliyi üçün “3+2” formatının (Azərbaycan-Ermənistan-Türkiyə-Rusiya-İran) prioritet olduğunu bir daha təsdiqləyir. Bu istiqamətdə, sözügedən səylərə xələl gətirən hər hansı bir şərh yersizdir.

Ceyms O’Braynın 907-ci düzəlişin icrasının müvəqqəti dayandırılması məsələsi ilə bağlı şərhinə gəlincə isə belə görünür ki, ABŞ tərəfi 1992-ci ildə təcavüzə və işğala məruz qalmış dövlət olmasına baxmayaraq, bu düzəlişlə sanksiyaya məruz qalan Azərbaycana qarşı etdiyi səhvi yenidən təkrarlayır. 2001-ci ildə 11 sentyabr hücumlarından sonra Azərbaycan ABŞ-ın terrorla mübarizə səylərini dəstəklədiyi zaman həmin ildə 907-ci düzəlişin icrasının müvəqqəti dayandırılması qərarını verən də ABŞ tərəfi olub. Məhz Azərbaycan hava məkanı marşrutlarını və logistika imkanlarını, Şimal Paylayıcı Şəbəkəsini açmaqla ABŞ tərəfinə öz yardım əlini uzadıb. Əfqanıstanda ABŞ tərəfi ilə çiyin-çiyinə mübarizə aparan ilk dövlətlərdən biri də məhz Azərbaycan olub. Azərbaycan eyni zamanda, Əfqanıstanı tərk edən sonuncu tərəfdaş ölkə olub. Lakin belə çıxır ki, ABŞ tərəfi həmişə Azərbaycanın dəstəyini müvəqqəti hesab edib, amma unudulmamalıdır ki, tarix təkrarlana bilər. ABŞ tərəfinin 907-ci düzəlişin icrasının müvəqqəti dayandırılması məsələsi ilə bağlı belə laqeyd hərəkəti Azərbaycana qarşı bədxah addımdır.

Bundan əlavə, “Azərbaycanın gücdən istifadə etməsi etimadı sarsıdıb və Bakının Ermənistanla hərtərəfli sülhə sadiqliyinə şübhələr yaradıb” ifadəsi 30 ilə yaxın təcavüzün və gücdən istifadənin qurbanının məhz Azərbaycan olduğunu nəzərə alaraq heç bir dəyər daşımır. Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək üçün gücdən istifadə etməklə bağlı legitim hüququ olduğunu bir daha vurğulayır.

ABŞ tərəfinin Azərbaycana münasibətdə ABŞ-ın təşəbbüsü ilə keçirilən yüksək səviyyəli ikitərəfli görüş və təmasları təxirə salması və “ikitərəfli münasibətlərimizdə “əvvəlki kimi” ola bilməz” bəyanatına gəlincə isə qeyd etmək lazımdır ki, münasibətlər birtərəfli ola bilməz. Beləliklə, eyni yanaşma Azərbaycan tərəfindən də bərabər şəkildə tətbiq olunacaqdır. Belə bir şəraitdə ABŞ-ın Azərbaycana yüksək səviyyəli səfərlərinin mümkünlüyünü də yersiz hesab edirik. Üstəlik, ABŞ-ın belə birtərəfli yanaşması ABŞ-ın vasitəçilik rolunu itirməsinə gətirib çıxara bilər. Bu şərtlər altında bizim 20 noyabr 2023-cü ildə Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində keçirilməsi təklif olunan görüşün baş tutmasını mümkün hesab etmədiyimizi qeyd etmək vacibdir.

Beynəlxalq hüququn norma və prinsipləri Azərbaycan xarici siyasətində həmişə prioritet olub. Azərbaycan həmişə beynəlxalq öhdəliklərinə uyğun hərəkət edəcək. Eyni zamanda, Azərbaycan öz milli maraqlarına zidd olan bütün mənfi addımları qətiyyətlə və adekvat şəkildə cavablandıracaqdır”, - şərhdə qeyd edilib.

Məsələ ilə bağlı “Unikal”a açıqlama verən sabiq xarici işlər naziri Elmar Məmmədyarov bildirib ki, Azərbaycanın mövqeyi tam olaraq düzgündür: “Vaşinqton görüşündən imtina etməkdə düz etmişik. Mən dəfələrlə demişdim ki, birbaşa danışıqlar daha faydalıdır. Bizim Vaşinqtona, Moskvaya və yaxud Brüsselə getməyimizə ehtiyac yoxdur. Ermənistana da başa salmalıyıq ki, ən yaxşı variant bizim birbaşa danışıqlar aparmağımızdır. Ona görə də, bir neçə ay əvvəl Azərbaycan sülh sazişinin layihəsinin hazırlanması ilə bağlı Ermənistana birbaşa təklif etdi. İndi isə gözləyirik, Ermənistan buna cavab verməlidir. Ermənilərin bunu qəbul edib-etməmələri öz işləridir. Onlar deyirlər ki, cavabı hazırlayırıq və göndərəcəyik. Baxmayaraq ki, Azərbaycan tərəfi layihə ilə bağlı düzəlişləri bir neçə ay əvvəl təqdim edib”.




Keçmiş nazir danışıqlarda üçüncü tərəfin iştirak etməsinin arzuolunan hal hesab edilmədiyini qeyd edib. “Danışıqlarda üçüncü qüvvə olanda, yəni, ABŞ, Avropa İttifaqı və yaxud Rusiya tərəfi iştirak edəndə, onlar da öz maraqlarını irəli sürürlər. Onu da qeyd edim ki, sülh sazişi bağlasaq bağlayarıq, bağlamasaq da, bizim üçün problem yoxdur. Biz sülh sazişi olmadan da yaşamışıq, yaşayırıq və yenə də yaşaya bilərik. Sülh sazişi daha çox Ermənistana lazımdır. Bu, onların milli maraqlarına daha uyğundur. Azərbaycan onsuz da inkişaf edir. Həm daxildə, həm də xaricdə öz işini aparır. Əgər Ermənistan birbaşa danışıqlara hazırdırsa, görüşlər keçirək və sülh sazişini imzalayaq. İstəmirsə, sülh sazişi olmadan necə yaşayırdıqsa, bundan sonra da elə yaşayarıq”, - deyə o bildirib.

***Murad İbrahimli***

# Prezident bu mərkəzi ləğv etdi - Fərman



***Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin tabeliyində "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti ləğv edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı müvafiq Fərman imzalayıb.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1-ci hissəsinin icrası ilə əlaqədar üç ay müddətində:

2.1.1. normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq, "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin əmlakı və digər məsələlərin həlli ilə bağlı tədbirlər görülməsini təmin etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görülməsini təmin etsin.

4. "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin tabeliyində "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 681 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 690; 2019, № 5, maddə 817; 2020, № 5, maddə 545; 2022, № 8, maddə 866) 2-ci, 4-cü və 5-ci hissələri ləğv edilsin.

# TDT-ya üzv ölkələrin nəqliyyat nazirlərinin 7-ci iclası keçirildi

***16 noyabr 2023-cü il tarixində Zəngilanda Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin nəqliyyat nazirlərinin 7-ci iclası keçirilib.***



"Unikal" xəbər verir ki, iclas zamanı cari ilin 3 noyabr tarixində Astana şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının 10-cu yubiley Zirvə görüşü zamanı nəqliyyat sahəsi üzrə qəbul edilən qərarlar, habelə Xəzər dənizində yük daşımaları, mülki aviasiya, dəmir yolu sahələri üzrə əməkdaşlığın intensivləşdirilməsi, üzv ölkələr arasında tranzit daşımaların rəqəmsallaşdırılması və sair məsələlər ətrafında müzakirələr aparılıb.

İclasda açılış nitqi ilə çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev türk dünyası ölkələri ilə nəqliyyat sahəsində əlaqələrin gücləndirilməsi və tranzit potensialının genişləndirilməsində üzv ölkələrlə çoxtərəfli formatda əməkdaşlığın əhəmiyyətini vurğulayıb: "Mürəkkəb geosiyasi proseslərin cərəyan etdiyi, qlobal iqtisadi gərginliyin artdığı bir şəraitdə bu formatda görüşlərin keçirilməsi yeni imkanların araşdırılması baxımından son dərəcə vacibdir. Azərbaycan üzv dövlətlər arasında iqtisadiyyatın bütün sahələrində, o cümlədən nəqliyyat sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün zəruri addımlar atmağa hazırdır".

Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüraliyev çıxışında üzv ölkələrin vahid amal, məqsəd və gələcək üçün daha sıx əməkdaşlıq və birgə inkişaf naminə qarşılıqlı dəstəyə tam olaraq hazır olduqlarını diqqətə çatdırıb.

Görüş zamanı TDT-yə üzv ölkələrin nəqliyyat nazirləri bəyanatlarla çıxış ediblər.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev öz bəyanatı zamanı qeyd edib ki, üzv ölkələrin ərazilərindən keçən Orta dəhlizin inkişafı bir sıra regional əməkdaşlıq formatlarının gündəliyində mühüm yer tutur. Belə ki, Azərbaycan ölkə daxilində infrastrukturun və institusional mühitin yaxşılaşdırılması ilə yanaşı, regional əməkdaşlığa hesablanan mühüm layihələrin icrasına davam edir. Bu baxımdan Zəngəzur dəhlizinin açılması vacib əhəmiyyət kəsb edir.

Nazir qeyd edib ki, Orta dəhlizin səmərəliliyinin artırılması infrastruktura yatırımlarla yanaşı, iştirakçı ölkələrlə birlikdə göstərilən xidmətlərin keyfiyyətini artırmağı tələb edir.

Rəşad Nəbiyev daha sonra tərəfdaş ölkələrlə əməkdaşlıq çərçivəsində dəhliz boyu tarif siyasətinin uyğunlaşdırılması, sərhədlərdəki sənədləşmənin sadələşdirilməsi, nəqliyyat şirkətlərinin və dəmir yolu administrasiyalarının əməliyyat fəaliyyətinin sinxronlaşdırılması istiqamətində görülən tədbirlərin ilkin nəticələri barədə məlumat verib.

Eyni zamanda iclas çərçivəsində Orta dəhlizin rəqəmsallaşdırılması məqsədilə Azərbaycan tərəfindən yaradılmış Rəqəmsal Nəqliyyat Logistika Platforması haqqında təqdimat olunub.

Sonda TDT-yə üzv ölkələrin nəqliyyat nazirlərinin 7-ci iclasının yekunlarına dair Kommunike imzalanıb.

# Zabuxa yola salınan köç karvanı Laçına çatıb

***Bakıdan yeni salınan Zabuxa yola düşən növbəti köç karvanı Laçına çatıb.***




"Unikal" xəbər verir ki, sakinlərə evlərin açarları təqdim edilib.

Qeyd edək ki, köç karvanı Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub. Sakinlər Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb.

# "Zəngəzur dəhlizi üzərində Azərbaycanla birgə işləyirik" - Türkiyəli nazir

***Zəngilanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin nəqliyyat nazirlərinin toplantısı keçirilir.***

"Unikal" xəbər verir ki, toplantıda çıxış edən Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdülkadir Uraloğlu Zəngəzur dəhlizinin bütün ölkələrə fayda gətirəcəyini bildirib.

O, işin mümkün qədər tez tamamlanması üçün Azərbaycanla çox sıx əməkdaşlıq etdiklərini bildirib: "Türkiyə ilə Azərbaycan arasında birbaşa dəmir yolu və avtomobil nəqliyyatını təmin edəcək bu əlaqənin həyata keçiriləcəyinə inanıram. Bu, bütün türk dünyasını birləşdirəcək əhəmiyyətli bir addım olacaq. İndiki Bakı-Tbilisi-Qars xəttinin Gürcüstan tərəfində təmir işləri gedir və biz onu yaxından izləyirik. O yol hələlik bağlıdır. Ona görə də alternativ olmalıdır. Bunun üçün biz Zəngəzur dəhlizi üzərində birgə işləyirik. Hazırda Azərbaycan tərəfində dəhlizdə çox böyük işlər gedir. Qalan 224 kilometri isə ölkəmizdə tenderə çıxardıq. Yaxın günlərdə orada işə başlayacağıq" .

# Ölkədə sosial yardım alanların sayı açıqlandı

***"Bu il ərzində 40 mindən çox insan əlillik təyinatı alıb. Onlardan 4 mindən artığı müharibə əlilliyi olan şəxslərdir".***



"Unikal" xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov deyib. Nazir müavini bildirib ki, bu gün Azərbaycanda 65 min insan ünvanlı sosial yardım alır: "İşsiz insanlara bu yardımı versək onda həmin şəxslər ancaq evdə oturacaq. Ona görə də alternativ məşğulluq xidmətlərinə baxmaq lazımdır. Hazırda məşğulluq sahəsinin 10-dan çox istiqaməti nəzərdən keçirilir".



# "Qarabağda yaşayan ermənilərin ilkin qeydiyyatı aparılır"- Xidmət rəisi

***Hazırda Xankəndidə, ümumiyyətlə, Qarabağda yaşayan ermənilərin müraciətləri ilə bağlı ilkin qeydiyyat aparılır.***

Bunu Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov deyib. O bildirib ki, erməni əsilli vətəndaşlarla bağlı məlumatlar mərkəzləşmiş qaydada təqdim edilir.

"İlkin qeydiyyat həyata keçirilir. Müvafiq məlumatlar uyğun zamanda açıqlanacaq"-, xidmət rəisi bildirib.

# "Bəzi qazilərin təminatlarında problemlər olur" - Arzu Nağıyev

***"Əlillik təyinatı almayan, ancaq qazi olan vətəndaşlarımızın dərman və digər təminatlarında müəyyən problemlər qeydə alınır. YAŞAT Fondu bu istiqamətdə yardımlar etsə də, məsələ ümumilikdə həllini tapsa yaxşı olar".***



"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin bugünkü iclasında deputat Arzu Nağıyev deyib.

Deputat qeyd edib ki, internat evlərindən çıxan qızların işlə təminatında ciddi addımlar atılmalıdır: "Oğlanlar bir çox işdə çalışa bilsələr də, qızlarda bu çətin olur. Ona görə də məsələyə ciddi yanaşılmalıdır".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

UNI-40_27 IYUI-QARA.qxd 11/16/2023 10:09 PM Page 6



# Zəngilanda “Beynəlxalq nəqliyyat-logistika dəhlizi” mövzusunda konfrans keçirilib

***Zəngilan şəhərində “Beynəlxalq nəqliyyat-logistika dəhlizi: Zəngilandan inkişaf impulsları” mövzusunda beynəlxalq konfransa start verilib.***

Konfrans Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi və Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə keçirilir.

Konfransın keçirilməsində məqsəd trans-regional nəqliyyat dəhlizlərinin inkişafı və genişləndirilməsi ilə bağlı dövlət, özəl və akademik sektorlar arasında müzakirələrin təşkili, maraqlı tərəflər arasında əməkdaşlığın qurulmasıdır.

Açılış nitqi ilə çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev hazırkı qlobal mənzərədə Orta dəhlizin beynəlxalq ticarət və daşımalarda sabitlik və səmərəliliyin simvolu kimi meydana çıxdığını vurğulayıb: “Orta dəhliz böyük həcmdə yükləri cəlb etməkdə davam edir. Bu, onun yüklərin hərəkəti üçün təhlükəsiz, proqnozlaşdırıla bilən və iqtisadi cəhətdən səmərəli alternativ təklif etmək qabiliyyəti ilə müəyyən edilir. Orta dəhlizin Çin və Avropanı birləşdirən okean marşrutundan 2-3 dəfə sürətli olması onu həm də daha sərfəli marşruta çevirir”.

Nazir Orta dəhlizin potensialının artırılması məqsədilə qonşu dövlətlərlə birlikdə aparılan işlərin əhəmiyyətini qeyd edib: “Orta dəhlizin keçdiyi ölkələrdə sabit siyasi iqlim və xalqlar arasında dostluq əlaqələrinin olması dəhlizlə bağlı məsələlərin həllində birgə səyləri daha da möhkəmləndirir. Bu həm də dəhlizi beynəlxalq ticarətdə etibarlı və davamlı marşrut kimi təyin edir. Biz bunu ölkəmizdən keçən tranzit yüklərin həcmində müşahidə olunan davamlı artımda görə bilərik”.

Rəşad Nəbiyev Zəngəzur dəhlizinin bərpasının Orta dəhlizin imkanlarını əhəmiyyətli dərəcədə artıracağını bildirib. Nazir bu məqsədlə istər Azərbaycan daxilində, istərsə də qonşu dövlətlərlə əməkdaşlıq çərçivəsində görülən işlərlə bağlı məlumat verib.

Konfransda yerli və xarici dövlət qurumlarının, beynəlxalq təşkilatların, beynəlxalq maliyyə institutlarının, beyin mərkəzlərinin əməkdaşları, alimlər və beynəlxalq nəqliyyat şirkətlərinin rəhbərlərinin iştirakı ilə bir neçə mövzuda panel müzakirələr keçirilib.

“Avrasiya regionunun ticarət və davamlı inkişafında beynəlxalq nəqliyyat dəhlizlərinin rolu” mövzusu üzrə panel müzakirələrdə bildirilib ki, son 20 ildə iki qitəni birləşdirən əsas dəhlizlərin - Şimal-Cənub və Şərq-Qərb dəhlizinin üzərində yerləşən ölkəmizdə nəqliyyat infrastrukturu tam modernləşdirilib. Nəticə etibarilə avtomobil və dəmir yollarının tikintisi və yenidən qurulması, yeni beynəlxalq hava limanlarının istifadəyə verilməsi, mülki aviasiya gəmilərinin və ticarət gəmiçiliyi donanmasının genişləndirilməsi, Bakı Beynəlxalq Dəniz Limanının tikintisi və limana bitişik Ələt Azad İqtisadi Zonasının yaradılması Azərbaycanı istər Şərq-Qərb, istərsə də Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri üzərində mühüm mərkəzə çevirdi. Azərbaycanın atdığı bu addımlar nəinki ölkənin, bütövlükdə regionun daha uzunmüddətli və dayanıqlı nəqliyyat əlaqələrinin formalaşmasına istiqamətlənib.

Konfrans zamanı keçirilən yüksək səviyyəli paneldə isə “Tranzit dəhlizlərinin yaradılması: Avrasiyanın potensialından istifadə” mövzusu ətrafında fikir mübadiləsi aparılıb.

Panel müzakirədə Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Omurəliyev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, Türkiyənin nəqliyyat və infrastruktur naziri Əbdülkadir Uraloğlu, Özbəkistanın nəqliyyat naziri İlham Maxkamov, Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov, Qazaxıstanın nəqliyyat nazirinin müavini Maksat Kaliakparov və Qırğızıstanın nəqliyyat və kommunikasiyalar nazirinin müavini İrisbek Bariyev iştirak ediblər.



Panel müzakirədə çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Zəngəzur dəhlizi istiqamətində həyata keçirilən nəqliyyat infrastrukturu layihələri barədə məlumat verib: “Zəngəzur dəhlizinin yaradılması təkcə Azərbaycan üçün deyil, eyni zamanda bütün region ölkələri üçün yeni imkanlar açacaq. Azərbaycan bu layihəni bölgədə sülh və təhlükəsizliyi dəstəkləyən, regionun nəqliyyat potensialını artıran və Orta dəhlizi daha da gücləndirəcək layihə kimi görür. Hazırda dəhlizin əsas hissəsini təşkil edən və 110 km uzunluğa malik “Horadiz-Ağbənd” dəmir yolu xəttində tikinti işləri yüksək templə davam edir və tikinti işləri üzrə texniki tərəqqimiz 50%-ə yaxınlaşıb. Bununla yanaşı, qonşu dövlətlərlə də bir sıra işlər görülür”.

Konfransda 15 ölkə, 8 beynəlxalq təşkilat və beynəlxalq maliyyə institutundan 200-dən çox nümayəndə iştirak edir. Daha sonra tədbir iştirakçılarının Zəngilan rayonunun Ağalı kəndinə turu təşkil olunub. Konfrans öz işini 17 noyabr tarixində Bakıda davam etdirəcək.

# “Ehtiyac meyarı anlayışı qanunvericilikdən çıxarılmalıdır” - Deputat



***“Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən vəsaitlər daha çox Mərkəzi Bankın qiymətli kağızlarına yönləndirilib. Gəliri yüksəkdir, risk azdır”.***

Bu fikirləri deputat Vüqar Bayramov parlamentin Əmək və sosial siyasət komitəsinin iclasında bildirib.

“Bu, başadüşüləndir. Bu o deməkdirmi ki, həm faiz dərəcəsinin yuxarı və aşağı həddinin aşağı düşməsi, həm uçot faiz dərəcəsinin azalması fonunda vəsaitlərin yerləşdirilməsindən əldə olunan vəsaitin həcmi gəlirlilik səviyyəsi və gəlirlilik norması 2023-cü illə müqayisədə az olacaq? Əgər bu az olacaqsa nə üçün nazirlik həmin vəsaitləri faiz dərəcəsi yüksək olan dövrdə yerləşdirmədi?” , - deyə deputat qeyd edib.

V.Bayramov vurğulayıb ki, İşsizlikdən Sığorta Fondunun xərclərinin az hissəsi birbaşa işsizlikdən sığortaya yönləndirilir, fondun xərclərinin 25 %-dən çoxu idarəetmə xərcləridir: “Təxminən 5 % işsizlik sığorta üçün yönləndirilir. İşsizlikdən Sığorta Fondunun maliyyələşdirilməsinə yenidən baxılmalıdır. Bundan başqa ehtiyac meyarı anlayışı, ümumiyyətlə, qanunvericilikdən çıxarılmalıdır. Ehtiyac meyarının yaşayış minimumundan az olması sosial baxımından məntiqi deyil. Düşünürəm ki, yalnız yaşayış minimumu anlayışından istifadə olunmalıdır”.

Millət vəkilinin sözlərinə görə, qazilər və şəhid ailələri işləmədiyi halda “putyovka” istifadə etmək imkanlarına malik olmalıdır: “Onlar həssas, prioritet qrupdur. Məqsədəuyğun olardı ki, qanunvericiliyə bununla bağlı dəyişiklik olsun”.

# Azərbaycanda şagirdlər arasında "Hepatit A" virusu yayıldı



***Mingəçevirdə məktəblilər arasında “Hepatit A” virusuna yoluxma aşkarlanıb.***

”Unikal”ın məlumatına görə, son bir həftə ərzində şəhərin əsasən Tərəvəzçilik yaşayış massivi ərazisində yerləşən Bahar küçəsində təsdiqlənmiş “Hepatit A” diaqnozu ilə 5 nəfər xəstə barəsində Mərkəzi Şəhər Xəstəxanasından Gigiyena və Epidemiologiya Mərkəzinə təcili bildiriş vərəqəsi daxil olub.

Onlardan dördü qız, biri isə oğlan uşağıdır və 6, 7, 9 və 11-ci sinif şagirdləridir.

***Ehtiram Muradov***

# "İşsiz insanlara yardım versək, onlar işləməyəcək" - Nazir müavini



***”Bu il ərzində 40 mindən çox insan əlillik təyinatı alıb. Onlardan 4 mindən artığı müharibə əlilliyi olan şəxslərdir”.***

”Unikal” xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov deyib.

Nazir müavini bildirib ki, bu gün Azərbaycanda 65 min insan ünvanlı sosial yardım alır: “İşsiz insanlara bu yardımı versək onda həmin şəxslər ancaq evdə oturacaq. Ona görə də alternativ məşğulluq xidmətlərinə baxmaq lazımdır. Hazırda məşğulluq sahəsinin 10-dan çox istiqaməti nəzərdən keçirilir. Bir vacib məqamı qeyd edim ki, İşsizlikdən Sığorta Fondunun əhatə dairəsi üçdə bir qədər artacaq”.

Nazir müavini qeyd edib ki, Fondun büdcəsinin 50 %-dən çoxu aktiv dəstək tədbirlərinə gedir: “Bundan əlavə, büdcənin bir hissəsi peşə standartının hazırlanmasına yönəldilir. Bu günədək 1000-ə yaxın peşə standartı hazırlanıb. Növbəti ildə 300-ə yaxın peşə standartı hazırlanacaq”.

A.Kərimov əlavə edib ki, Elektron məşğulluq xəritəsinin hazırlanması planlaşdırılır.Onun sözlərinə görə, bu ilin 10 ayı ərzində 40 mindən çox vətəndaşımız əlillik təyinatı alıb: “Onların 4 mindən artığı müharibə əlilliyi olan şəxslərdir”.

UNI-40_27 IYUI-QARA.qxd 11/16/2023 10:09 PM Page 7





## Qubad İbadoğlunun həbs müddəti uzadıldı

***Məhkəmə Azərbaycan Demokratiya və Rifah Hərəkatının sədri Qubad İbadoğlu barəsində yeni qərar verib.***

"Unikal" xəbər verir ki, Nərimanov rayon məhkəmənin qərarına əsasən, Qubad İbadoğlu barəsində həbs qətimkan tədbirinin müddəti daha 3 ay uzadılıb.

## Ceyhun Bayramov Avrasiya Patent İdarəsinin prezidentini qəbul etdi

***16 noyabr 2023-cü il tarixində xarici işlər naziri Ceyhun Bayramov Avrasiya Patent İdarəsinin (APİ) prezidenti Qriqori İvliyevi qəbul edib.***

Xarici İşlər Nazirliyindən bildirilib ki, görüş zamanı Azərbaycanda əqli mülkiyyət institutunun inkişafının ölkə rəhbərliyinin diqqət mərkəzində saxlanıldığı, sözügedən sahədə genişmiqyaslı struktur islahatlarının aparıldığı, idarəçiliyin optimallaşdırıldığı qarşı tərəfin diqqətinə çatdırılıb.

"Azərbaycan 2020: gələcəyə baxış inkişaf konsepsiyası", "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası" kimi dövlət əhəmiyyətli sənədlərdə əqli mülkiyyət sahəsinin inkişafı istiqamətlərinə ayrıca yer verildiyi ifadə olunub.

Azərbaycan Əqli Mülkiyyət Agentliyi ilə APT-APİ arasında əməkdaşlıq əlaqələrinin, habelə beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı fəaliyyətlərin böyük önəm kəsb etdiyi vurğulanıb.

APİ-nin prezidenti Qriqoriy İvliyev tərəfindən qeyd edilənlərlə həmfikirlik bildirilərək, əqli mülkiyyət sahəsində mümkün əməkdaşlığın müvafiq kadrların hazırlanması, patentlərin rəsmiləşdirilməsi, vahid standartların tətbiqi kimi geniş əhatə dairəsinə malik olduğu diqqətə çatdırılıb.

Əqli mülkiyyət sahəsində əlaqələrin inkişafına töhfə verilməsi məqsədilə rəhbər və işçi səviyyədə təmasların davam etdirilməsinin, konfranslar, dəyirmi masalar kimi tədbirlər vasitəsilə bir araya gələnərək həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq məsələlərin müzakirəsinin əhəmiyyəti ifadə olunub.

Görüş zamanı, həmçinin, qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən APİ ilə digər beynəlxalq təşkilatlar arasında əməkdaşlıq əlaqələri, qlobal patent müraciətləri sahəsində son meyllər, APİ-nin müvafiq strukturlarına seçkilər barədə fikir mübadiləsi aparılıb.

# "Təhsil sistemində peşəkar kadrlar lazımdır"

## Ceyhun Məmmədov: "Son illər bu sahədə mövcud olan peşəkar kadrların çoxu prosesdən uzaqlaşdırıldı və onların yerinə sahəni bilməyənlər daxil edildi"

***Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, təhsil sahəsində hansı islahatların lazım olduğundan, repetitorluğun təhsilə yaratdığı problemlərdən, müəllimlərin maaşlarından, Bakıdakı məktəblərdəki sıxlıqdan və başqa məsələlərdən danışıb.***

***-Ceyhun müəllim, Milli Məclisdə 2024-cü ilin dövlət büdcəsinin müzakirəsi zamanı ən çox danışılan məsələlərdən biri də təhsil sahəsi idi. Siz də zaman-zaman bu sahədəki problemləri qeyd edirsiz. Necə düşünürsüz, təhsil sahəsində hansı islahatlar olmalıdır?***

-Bu gün təhsildə həllini gözləyən məsələlərdən biri də peşəkar kadrların prosesə cəlb olunmasıdır. Son illər bu sahədə mövcud olan peşəkar kadrların çoxu prosesdən uzaqlaşdırıldı və onların yerinə bu sahəni bilməyənlər daxil edildi. Bu sahəyə ilk növbədə peşəkar kadrlar lazımdır. Bir gün sinfə daxil olmayan, auditoriyada dərs deməyən, ümumiyyətlə, dərs bölgüsündən, universitetdən, məktəbdən, kafedradan, dekanlıqdan anlayışı olmayan insan təhsil sahəsini idarə edə bilməz. Doğrudur, hazırda bəzi peşəkar kadrlar var. Amma mütləq əksəriyyət təhsildən tamamilə uzaq insanlardır. Təhsil sahəsində təcrübə şərtdir. Burada peşəkar mütəxəssislərin olması önəmlidir. Digər məsələ təhsilin regionlaşması ilə bağlıdır. Burada da bəzi problemlər yaşanır. Təhsilin regionlaşdırılması hələki istədiyimiz effekti vermir. Regional təhsil idarələrinin çoxuna qeyri-peşəkarların cəlb edilməsi vəziyyəti daha da gərginləşdirir. Aqronom, bank və digər sahələrdən gələnlər region təhsil idarələrinə rəhbərlik edirlər. Bu da təhsilə öz təsirini göstərir. Digər problem təcrübəsiz insanların məktəb direktorluğuna təyin olunmasıdır. Yəni, idarəçiliyi bilməyən insanlar məktəblərdə direktor kimi çalışırlar. Bu da problem kimi özünü göstərir.

***-Əsas danışılan məsələlərdən biri də repetitorluqdur. Belə ki, tək yuxarı sinif şagirdləri deyil, aşağı sinif şagirdləri də repetitor yanına gedirlər. Bu sahə ilbəil daha da genişlənir...***

-Repetitorluq Azərbaycan təhsilinin qara yarasıdır. Bu da təhsilimizin ən böyük problemlərindəndir. Bu məsələni qaldıranda deyirlər ki, dünyanın hər yerində repetitorluq var. Hər yerdə repetitorluq bu dərəcədə deyil. Repetitorluq təhsilimizə böyük problem yaradır və gözdən salır. Dövlət orta məktəblər üçün milyardlarla pul xərcləyir. Orta məktəbin büdcəsi 2 milyarddır və bununla yanaşı vətəndaşlarımız bir neçə milyard pul xərcləyirlər ki, övladları repetitor yanına getsin, orada əlavə bilik alsın. Bu gün məktəblərin bir hissəsi buna şərait yaradır. Repetitorluq çox vəsait aparan məsələdir və demək olar ki, uşaqların hamısı repetitor yanındadır. Ona görə ki, məktəbə inam yoxdur. Elə bil təhsilə paralel təhsil yaratmışıq. Dövlət təhsili və ona paralel yaratdığımız repetitorluq var. Məktəbin maliyyələşməsi pulsuz deyil, dövlət maliyyəni ödəyir, hər şagirdə pul xərcləyir. Dövlətin xərclədiyi pul boşuna gedir, əlavə olaraq övladları ali məktəbə hazırlaşan valideynlər əziyyət çəkirlər. Təəssüf ki, bunun həlli ilə bağlı heç bir addım atılmır. Bu məsələni həll etməli və təhsili məktəbə qaytarmalıyıq. Azərbaycan təhsili evlərdədir, repetitorlardadır. Bunu dəyişib öz istiqamətinə gətirib çıxarmalıyıq.

***-Müəllimlərin əmək haqqı da müzakirə olunan məsələlərdən biridir. Son illər bu istiqamətdə artımlar var. Sizcə, müəllimlərin maaşı nə qədər olmalıdır?***

-Əvvəlki dövrlə müqayisədə orta məktəblərdə müəllimlərin maaşı xeyli düzəlib. Bir müəllim hardasa 1000 manata yaxın vəsait alır. Bunu da yetərli hesab etmirəm. Amma 2-3 il bundan əvvəl müəllimin maaşının 300 manat olduğunu nəzərə alsaq, indiki artım inkişafdır. Əvvəlki dövrlə müqayisədə sertifikasiyadan keçən müəllimlərin maaşı xeyli artıb. Növbəti mərhələdə bunu daha da artırmaq lazımdır. Amma əsas problemimiz ali təhsil müəssisələrindədir. Yəni, orta məktəb müəllimi 1000 manat ətrafında maaş alır, universitet müəlliminin tam ştat əmək haqqısı isə 600-700 manatı keçmir. Bunu əksər hallarda onunla əlaqələndirirlər ki, tələbələrdən aldıqları təhsil haqqı hesabına bu işləri görürlər. Maaşı qaldırmaq imkanlarının olmadığını qeyd edirlər. Orta məktəb üçün müəllim hazırlayan universitetin müəllimi qeyd etdiyim qədər maaş alır. Bəzi universitetlərdə isə müəllimin maaşı 700 manata çatmır. Ona görə də universitetlərin maliyyələşmə sisteminə və mexanizmlərinə baxmalıyıq.

***-Orta məktəblərdə şagird sıxlığı əsas diqqət çəkən məqamlardandır. Belə hallara daha çox Bakıda və onun ətrafında rast gəlinir. Burada insanların regionlardan paytaxta axın etməsinin də rolu var. Bunu tənzimləmək və məktəblərdə şagird sıxlığının azaldılması üçün hansı işlər görülməlidir?***

-Bakıda məktəblərdə şagird sıxlığı həddindən artıq çoxdur. Təhsilimizə mənfi təsir göstərən məsələlərdən biri də budur. Bakı ətrafında bu sıxlıq daha çox özünü göstərir. Bu da öz növbəsində təhsilin keyfiyyətinə təsir edir. Bir müəllim 40-45 şagirdlə necə məşğul ola bilər? Bunun həlli üçün real addımlar atılmalıdır. İlk növbədə bölgələrdə yeni iş yerləri yaradaraq əhalinin geri köçürülməsinə baxmalıyıq. Eyni zamanda, Bakıda yeni məktəblərin inşası məsələsi diqqətdə saxlanılmalıdır. Ölkəmizdə 800-ə yaxın məktəb təmirsizdir. Elm və Təhsil Nazirliyinin yanaşması odur ki, bunları 10 ilə həll etmək olar. Başa düşürəm ki, 800 məktəbi bir və ya iki ilə təmir etmək mümkün deyil. Həmçinin, bu gün yeni məktəblərin tikilməsi və təmiri sürətlə həyata keçirilir. Hesab edirəm ki, buna daha çox diqqət ayırmalıyıq və işləri sürətləndirməliyik.



***-Parlamentdə büdcə müzakirəsi zamanı deputat həmkarlarınızdan biri qeyd etdi ki, orta məktəblərdə uşaqlar dərsdən yayınırlar, dil öyrənməyə gedirlər və bu da savadlılıq göstəricisi olur. Siz bu məsələ ilə bağlı nə deyərdiz?***

-Xarici dil öyrənməyin tərəfdarıyam. Xarici dil bilmək yaxşıdır. Belə ki, xaricə səfər edəndə, orada konfranslarda və tədbirlərdə iştirak zaman xarici dil bilmək lazımdır. Amma xarici dil bilmək əsas meyar olmalı deyil. Bəzən müşahidə edirik ki, bəzi strukturlarda kadr işə cəlb olunarkən əsas meyar kimi dil bilməsi götürülür. Bir insan xarici dil bilirsə, gəlib hansısa yüksək postda işləyə bilər yanaşmasını dəyişməliyik. Xarici dil bilmək yaxşıdır, əsas meyar isə təcrübə olmalıdır. Təcrübəsi olmayan insan xarici dili yüksək səviyyədə bilər, amma təcrübənin olması da vacibdir. Bir məsələni qeyd edim ki, bu özünü həm Avropa, həm də digər ölkələrdə göstərib. Belə ki, xaricdə təhsil alanların bir hissəsi sonradan təsir altına düşür və onlar bizim dəyərlərdən uzaqlaşırlar. İdarəçilikdə hər bir şəxsin həm də vətənə, dövlətə, dəyərlərə bağlılığı və digər məsələlər mütləq nəzərə alınmalıdır. Bu nəzərə alınmayanda, sonradan problem və çətinliklər yaradır. Xaricdə təhsil alan tələbələrimizlə oradakı təşkilatlar, qurumlar sıx işləyirlər. Bunu bəzən dini təhsillə, istiqamətlə bağlı deyirik. Amma bu özünü tək dində göstərmir. Tutaq ki, biri Avropanın hansısa ölkəsində təhsil alır, oranın həm müsbət, həm də mənfi tərəflərini götürür. Ölkəmizə qayıdıb gəldikdən sonra bu özünü göstərir. Əvvəlki dövrdə qloballaşmadan daha çox danışırdıq. Bu proses tamam fərqli istiqamətə gedib. Təəssüf ki, qloballaşma həyatımızın bütün sahələrində, istiqamətlərində özünü göstərməyə başlayıb. Bu məsələlərdə diqqətli olmağımıza ehtiyac var. Məsələn, bir şəxs imtahan verir, yüksək bal toplayır və dövlət qulluğuna gəlir. Və ya deyək məktəb direktoru olur. Bunun psixoloji vəziyyəti, bizim dəyərlərə bağlılığı, dünya görüşü, intelektual səviyyəsi və digər məsələlər də nəzərə alınmalıdır. Bir də görürsən ki, tərbiyəsi, əxlaqı yerində olmayan insan hansısa qurumda və ya məktəbdə vəzifədə çalışır. Bu da nəticə etibarı ilə müəyyən problemlərə gətirib çıxarır.

***Anar Kəlbiyev***

# Oqtay Şirəliyevin klinikası borc içində...

## Sabiq nazirin əsas qazanc mənbələrindən biri bağlanır?



***İcbari Tibbi Sığortanın tətbiqindən sonra bir sıra özəl klinikalarda pasiyent çatışmazlığı yaranıb. Bu da tibb ocaqlarında maliyyə böhranına səbəb olub. Ona görə bir sıra böyük klinikaların fəaliyyətinin dayandırılacağı gözlənilir.***

Bu barədə məlumat yayan "Medicina.az" onlardan bəzilərinin adlarını təqdim edib. Bunlar aşağıdakılardır:

- Xətai Estetik Mərkəzinin yaxın günlərdə fəaliyyətini dayandıracağı gözlənilir.
- Avrasiya Hospitalı demək olar ki, əvvəlki fəaliyyətinin 90 faizini yerinə yetirmir.
- Borcla yüklənən və ağır duruma düşən klinikalardan biri də Respublika Diaqnostika Mərkəzidir (RDM).

Xatırladaq ki, RDM keçmiş Səhiyyə naziri Oqtay Şirəliyevə məxsusdur. O, ötən ilin fevral ayında bu xəstəxananı öz adına keçirmişdi. Belə ki, həmin vaxt Respublika Diaqnostika Mərkəzinin yeni qanuni təmsilçisinin adı müəyyənləşib. Nizamnamə kapitalı 2 milyon 415 min 646 manat olan Respublika Diaqnostika Mərkəzinin qanuni təmsilçisi məhz sabiq Səhiyyə naziri Şirəliyev Oqtay Kazım oğlu olub.

Onu da deyək ki, Oqtay müəllim 1988-2005-ci illərdə adıçəkilən tibb müəssisəsinin direktoru postunu tutmuşdu. Elə həmin vəzifədən də 2005-ci ilin oktyabrın 20-də Səhiyyə naziri postuna təyinat almışdı.

O, 2021-ci ilin aprelin 23-də Səhiyyə naziri vəzifəsindən uzaqlaşdırıldı.

Bundan 10 ay sonra isə bir zamanlar direktoru olduğu Respublika Diaqnostika Mərkəzini öz adına keçirdi.

Hazırda adıçəkilən tibb müəssisəsinin saytında icraçı direktor olaraq Rəşid Vəzirov, baş həkim kimi də Könül Xəlilovanın adı göstərilir. Əldə etdiyimiz məlumata görə, O.Şirəliyev adıçəkilən Mərkəzə ümumi rəhbərliyi həyata keçirir. O, Səhiyyə naziri təyin edildikdən bir müddət sonra bu tibb müəssisəsinə xüsusi diqqət göstərib. Dövlət büdcəsi hesabına Respublika Diaqnostika Mərkəzi dünyada mövcud olan ən son texnoloji nailiyyətlərə əsaslanan avadanlıq və cihazlarla təchiz olunub. Ümumi havalandırma, mərkəzləşdirilmiş oksigen və azot qazları sistemi yaradılıb ki, bunun köməyi ilə istənilən anda hər bir otağı intensiv terapiya palatasına çevirmək mümkündür. Mərkəzdə endoskopik diaqnostika şöbəsi, həmçinin cərrahiyyə və reanimasiya şöbələri yaradılıb. Cərrahiyyə şöbəsində alman texnologiyası ilə "ağıllı" əməliyyat otağı quraşdırılıb, onun sistem və proqram təminatı da Almaniyadan idxal olunub və s.

Hətta bir neçə il öncə məlumat verilirdi ki, Respublika Diaqnostika Mərkəzi (RMDM) ABŞ-ın JCI (Joint Commission International) standartları ilə tibbi xidmət göstərir. JCI bütün dünyada səhiyyə mərkəzlərinin akkreditasiyasını icra edən ən nüfuzlu və etibarlı təşkilat kimi qəbul olunur. Dünyada keyfiyyətli tibbi xidmət və pasiyent təhlükəsizliyi üzrə tanınan bir nailiyyətdir. Akkreditasiya prosesi bir yoxlama ilə bitmir, qızıl nişan 3 il müddətinə verilir və yeni nişan qazanmaq üçün yenidən akkreditasiya prosesindən keçmək lazımdır. Yəni bu proses daimi olaraq keyfiyyətin yaxşılaşdırılması və təhlükəsizliyin təmini və artırılması ilə bağlıdır.

Respublika Diaqnostika Mərkəzi ilə birgə dünyanın qabaqcıl ölkələrinin bir çox aparıcı xəstəxanaları JCI akkreditasiyası qazanan xəstəxanalar siyahısındadır. Məsələn, İsraildə 32, Almaniyada 2, Türkiyədə 44 xəstəxana JCI qızıl nişanını qazanmışdır.

Xəstəxana JCI qızıl nişanını əldə edibsə, bu, o deməkdir ki, xəstəxana:

- Üzərinə yüksək keyfiyyətli tibbi xidmət göstərmək öhdəliyi götürür;
- Pasiyentlər, ziyarətçilər və işçilər üçün təhlükəsizlik mədəniyyəti mühiti yaradır;
- Qabaqcıl və sübutlara əsaslanan müalicə və qulluq göstərir.

Bir sözlə, Şirəliyevin Səhiyyə naziri olduğu dövrdə Respublika Diaqnostika Mərkəzinin fəaliyyətində maddi-texniki baxımdan heç bir problem müşayiət olunmayıb.

Oqtay müəllim nazir postunu itirdikdən və adıçəkilən tibb müəssisəsini öz adına keçirdikdən sonra isə belə görünür ki, RDM-in işləri qaydasında getməyib. Elə buna görə də, Mərkəzin borca yükləndiyi və maddi baxımdan ağır duruma düşdüyü, hətta bağlana biləcəyi barədə məlumat yayılıb.

Ən maraqlısı isə odur ki, cəmi 2 il öncəyədək dünyada mövcud ən son texnoloji nailiyyətlərə əsaslanan avadanlıq və cihazlarla təchiz olunduğu, adı dünyanın qabaqcıl ölkələrinin bir çox aparıcı xəstəxanaları ilə birgə JCI akkreditasiyası qazanan xəstəxanalar siyahısına düşdüyü tibb müəssisəsi nə baş verib ki, Şirəliyevin nazir postunu itirməsi ilə birgə indi maddi çətinliklə qarşılaşıb, hətta bağlanmaq riski ilə üzləşib?!

***Toğrul Əliyev***

## "Qiymət artımları zərərlə işləməyimizə gətirib çıxarır" - Deputat



***"15 il müddətində həmkarlar təşkilatlarına ayrılan vəsaitdə artım olmayıb. Yalnız son iki ildə dövlət büdcəsindən vəsait artımı olub. Lakin qiymət artımları bizim zərərlə işləməyimizə gətirib çıxarır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin bu gün keçirilən iclasında deputat Səttar Möhbalıyev deyib. O bildirib ki, əvvəl ümumi vəsaitdən 35 min qalıq qalırdısa, indi cəmi 12 min qalır: "Sanatoriyaların sayı artır. Həmkarlar təşkilatının büdcəsindən 200 minə yaxın adamı əlavə göndəririk. Aztəminatlı ailələrdən 60 mindən artıq insana ərzaq yardımı göstərmişik. 400 şəhid uşağını 18 yaşına çatana qədər himayəyə götürmüşük. Odur ki, bu kimi məsələlərə baxılmasını təklif edirəm".

## "Onlar sosial güzəştlərdən istifadə imkanlarını itirirlər" - Əziz Ələkbərli



***"Bu yaxınlarda polis bölmələrinə qeydiyyatına düşənləri qeydiyyatdan çıxardılar. Həmin şəxslərin arasında Qərbi azərbaycanlılar və başqa katoriqoriyadan olanlar var".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında deputat Əziz Ələkbərli deyib.

"Bununla da onlar həm işə düzəlmə, həm də dövlətin digər sosial güzəştlərindən istifadə imkanlarını itirirlər. Bu sahədə çoxlu müraciətlər olur. Hesab edirəm ki, bu məsələyə diqqət yetirmək lazımdır. Sənədsiz evlərə çıxarışlar verilməklə məsələni həll etmək olar", - ddeyə deputat bildirib.

***Anar***

## AZAL, ATB və "China Tourism Group" arasında Anlaşma Memorandumu imzalanıb




***Noyabrın 15-də Çin Xalq Respublikasının Pekin şəhərində Azərbaycanın milli aviadaşıyıcısı AZAL, Dövlət Turizm Agentliyinin tabeliyindəki Azərbaycan Turizm Bürosu və "China Tourism Group" arasında turizm sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.***

Bu barədə "Unikal"a "Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən məlumat verilib.

Bildirilir ki, imzalanma mərasimində AZAL-ın icraçı direktorunun birinci müavini Nazim Səmədov, Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid, "China Tourism Group"un baş direktorunun müavini Van Çençen və digər rəsmi şəxslər iştirak ediblər.

Memorandum çərçivəsində Azərbaycanda yeni turizm məhsullarının yaradılması, onların təşviqi, həmçinin onlayn və əyani şəkildə müxtəlif tədbirlərin təşkili üzrə birgə işlərin görülməsi nəzərdə tutulur.

"Bu təşəbbüs Azərbaycan və Çin arasında turizmin inkişafı və turist axınının artırılmasına töhfə verəcək. AZAL müasir təyyarə parkına malik dünyanın sürətlə inkişaf edən aviadaşıyıcılarından biridir və marşrut şəbəkəsini daima genişləndirməkdədir. Belə ki, aviaşirkət dekabr ayından etibarən Çinin paytaxtı Pekinə uçuşlar həyata keçirməyi planlaşdırır. Bundan əlavə, AZAL gələcəkdə Çin istiqamətlərini inkişaf etdirməyə hədəflənib", - deyə AZAL-ın icraçı direktorunun birinci müavini Nazim Səmədov bildirib.

Tədbirdə çıxış edən Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid Çinin getmə turizmi üzrə geniş potensialının mövcudluğunu qeyd edib. İmzalanmış memorandumun Azərbaycana səfər edən Çin vətəndaşlarının sayının daha da artmasına öz töhfəsini verəcəyini diqqətə çatdırıb. Florian Zenqstşmid 2023-cü ilin yanvar-oktyabr dövrü ərzində Çindən Azərbaycana səfər edən ziyarətçilərin sayının 20 469 nəfər olduğunu, bunun da ötən ilin eyni dövrü ilə müqayisədə 7 dəfədən çox artım sayıldığını bildirib. O, bu rəqəmlərin çinli səyahətçilərin Azərbaycana xüsusi marağının göstəricisi olduğunu vurğulayıb.

UNI-40_27 IYUI-QARA.qxd 11/16/2023 10:09 PM Page 9





## Komitə sədri "Limes" Geosiyasət Məktəbinin məzunları ilə görüşdü

***İtaliyanın məşhur "Limes" Geosiyasət Məktəbinin "Məzunlar Klubu"nun üzvləri Azərbaycana səfərləri çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsində olublar.***

"Unikal" xəbər verir ki, Komitə sədri Fuad Muradov qonaqları Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən diaspor siyasəti, uğurlu nəticələr verən çoxistiqamətli layihələr, xüsusilə xaricdəki Azərbaycan Evləri, mədəniyyət mərkəzləri və həftəsonu məktəbləri barədə məlumatlandırıb.

Görüşdə dünya azərbaycanlılarının, o cümlədən İtaliyadakı Azərbaycan icmasının müharibə və post-müharibə dövründəki fəaliyyəti diqqət mərkəzinə gətirilib, diasporumuzun yayılma arealı və yumşaq gücə çevrilmə imkanlarından danışılıb.

Səmimi qəbula görə təşəkkür edən qonaqlar ölkəmizdə səfərdə olmaqdan böyük məmnunluq hissi keçirdiklərini qeyd edib, səfərlərinin əsas məqsədinin Cənubi Qafqazın lider dövləti olan Azərbaycanı yaxından tanımaq, ölkəmiz haqqında ətraflı məlumat əldə etmək olduğunu nəzərə çatdırıblar.

Bildirilib ki, İtaliya ilə Azərbaycanın əlaqələrinin perspektivləri, regionda baş verən hadisələr barədə informasiyaların əldə olunması, təhlillərin aparılması "Limes" Geosiyasət Məktəbinin məzunları üçün olduqca maraqlıdır.

Daha sonra əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb, perspektivlər müzakirə olunub. Qonaqlara ölkəmizin tarixi və mədəniyyəti ilə bağlı kitablar hədiyyə olunub, xatirə şəkilləri çəkilib.

Qeyd edək ki, İtaliyadan ölkəmizə səfərə gələn nümayəndə heyətinin tərkibində öz sahələri üzrə tanınmış və nüfuzlu şəxslər var.

## "Keçmişdə Zəngəzur dəhlizi ilə 7-12 mln. ton yük daşınıb" - Nazir

***Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə Yol Xəritəsinə Zəngəzur dəhlizinin əlavə edilməsi Orta Dəhlizin inkişafına təkan ola bilər.***




"Unikal" xəbər verir ki, bunu bu gün "Beynəlxalq nəqliyyat-logistika dəhlizi: Zəngilandan inkişaf impulsları" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev deyib.

O bildirib ki, şərqlə qərb arasında daşımalarda Orta Dəhlizin bir hissəsi olaraq Zəngəzur dəhlizi böyük potensialı var: "Sovet İttifaqı dövründə Zəngəzur dəhlizi ilə 7-12 milyon ton həcmində yüklər daşınıb. Amma təəssüf ki, Ermənistan üçtərəfli bəyanata zidd olaraq dəhlizin açılmasına son üç ildə imkan verməyib. Amma alternativlər, digər seçimlər həmişə var".

# Məmurların "sənədsiz evlər oyunu"

## Hətta deputatların da səbri daralıb, lakin əlaqədar qurumlardan xəbər yoxdur - ildə 50 milyon manatlıq müəmma!

***Uzun illərdir Azərbaycanda həllini gözləyən problemlərdən biri də sənədsiz evlərin qeydiyyatı məsələsidir. Çoxdandır media bu mövzuda yazır, ekspertlər danışır, aidiyyatı qurumlar vəd verir, lakin dəyişən heç nə yoxdur. Sözügedən problemin həlli nəyə görəsə dalana dirənib...***

Artıq millət vəkilləri də məsələ ilə bağlı narazılıqlarını dilə gətirməyə başlayıblar. Sonuncu dəfə yola salmaq üzrə olduğumuz həftə Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov parlamentin noyabrın 13-də keçirilən plenar iclasında "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı haqqında danışılan problemə toxunub.

"Prezident bir neçə dəfə tapşırıq verib ki, sənədsiz evlər qeydiyyata alınsın. Elə adam var ki, indi yaşadığı evdə nəvəsini evləndirib, ancaq evi indiyədək qeydiyyatsızdır. Görəsən, BMT qeydiyyatla bağlı qətnamə çıxarmalıdır?! Qeydiyyatsız evlərin sayı bir milyona çatır. Halbuki bu qədər çox sayda evin qeydiyyata alınması ilə yığılan vergilər, kommunal ödənişlər dövlət büdcəsinə daxil olacaq. Ona görə də qeydiyyatsız evlər sənədləşdirilməlidir. Amma bu gün vəziyyət əksinədir və vətəndaş qeydiyyatdan çıxarılır, nəticədə dövlətdən narazı salınır. Hətta şəxsiyyət vəsiqəsi də vermirlər ki, ev qeyri-qanuni tikilib. Hansı ki, vətəndaş 30 ildir orada yaşayır. Bu məsələ öz həllini tapmalıdır" - deyə Novruzov bildirib.

Xatırladaq ki, 2011-ci ilin martında Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə Prezident İlham Əliyev rəsmi icazə olmadan tikilmiş evlərin sənədləşdirilməsi ilə bağlı hökumətə xüsusi tapşırıq verdiyini deyib: "Bakıda evlərin qeydiyyata alınması problemi var. Ancaq elə etmək lazımdır ki, bu problem həll olunarkən xoşagəlməz halların qarşısı tam şəkildə alınsın. Sirr deyil ki, qeydiyyata alınma zamanı əsassız tələblər irəli sürülə, rüşvət, əsassız maraqlar ola bilər. Bu, reallıqdır. Ona görə də Hacıbala Abutalıbova göstəriş vermişəm. Bu məsələnin həlli üçün şəffaf mexanizm işlənməlidir ki, biz burada korrupsiyanı, rüşvətxorluğu tamamilə aradan götürək. Yoxsa, xoşniyyətli bir təşəbbüs yenə də bəzi adamların tamahkarlığı ucbatından bizə ancaq problemlər gətirə bilər".

Sonradan - 2012-ci ilin iyun ayında Prezident magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin və suların mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində inşa edilmiş yaşayış evləri və digər tikililərlə bağlı məsələlərin tənzimlənməsi məqsədilə komissiya yaradılması haqqında sərəncam imzaladı. Komissiya tərəfindən strateji, dövlət əhəmiyyətli, mühafizə zolağına düşən ərazilərdəki, neft quyularının, yüksək gərginlikli elektrik xətlərinin, dəmir yolu xətlərinin yaxınlığındakı, dövlət müəssisələrinin ərazisində tikilən evlərlə bağlı araşdırma aparılıb, bütün lazımi sənədlər toplanaraq Bakı Şəhər İcra Hakimiyyətinə (BŞİH) göndərilib.



Nəhayət, Prezident 2015-ci il yanvarın 13-də sənədsiz evlərlə bağlı problemin həllinə dair "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanun qüvvəyə minənədək əldə edilən və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin siyahısı"nın təsdiq edilməsi barədə fərman imzaladı. Fərmanla müəyyən edilir ki, siyahıda nəzərdə tutulmuş sənədlər müvafiq əmlaka hüququn əmələ gəldiyi anda həmin əmlak magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin və suların mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində yerləşmədiyi hallarda daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması üçün əsas hesab edilir. Lakin bu fərman da evlərin sənədləşməsi sahəsində ciddi irəliləyişlə nəticələnmədi.

Nəhayət, 2019-cu ildə problem yenidən, özü də birbaşa ölkə prezidenti tərəfindən gündəmə gətirildi. Belə ki, prezident fevralın 19-da "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərman imzaladı. Bununla yanaşı, Əmlak Məsələləri Dövlət Komitəsi də açıqlama yayaraq, özbaşına və sənədsiz inşa edilmiş tikililərin sənədləşdirilməsi ilə bağlı konsepsiya hazırlandığını, yaxın zamanlarda həmin konsepsiyanın Prezident Administrasiyasına təqdim ediləcəyini bildirdi. Daha sonra isə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov ətraf qəsəbələrin sakinləri ilə görüşündə müvafiq işçi qrupunun yaradıldığını və tezliklə fərdi evlərin sənədləşməsi prosesinə başlanacağını qeyd etdi.

Üç il öncə isə İqtisadiyyat Nazirliyinin Dövlət Əmlak Xidmətindən mediaya verilən məlumatda bildirilirdi ki, inventarlaşdırma istisnasız olaraq bütün sənədsiz evləri əhatə edəcək: "Bununla bağlı vətəndaşların harasa müraciət etməsinə gərək yoxdur. Komissiya üzvləri bütün evlərə özləri gedərək zəruri məlumatları toplayırlar. Sadəcə, 2020-ci ildə pandemiya səbəbindən proses bir qədər ləngidi, evlərə getmək mümkün olmadı. Bu ildən proses yenidən geniş miqyasda başladılıb". Xidmətdən onu da bildirmişdilər ki, prosesin 2021-ci ilin sonunadək başa çatdırılması hədəflənir.

Ancaq aradan 2 il keçib və sənədsiz evlərin qeydiyyatı məsələsi ilə bağlı hər hansı diqqətçəkən irəliləyiş yoxdur. Belə aydın olur ki, kimlərsə problemin köklü həllində nəyə görəsə maraqlı deyil. Halbuki təxmini hesablamalara görə, dövlət sənədsiz evlər səbəbindən ildə 50 milyon manata yaxın vəsait itirir! Görünür, müəyyən məmurlar üçün bu qədər böyük məbləğin dövlət xəzinəsinə getməyindənsə, başqa ciblərə yönəlməsi daha "məqsədəuyğundur". Belə olmasaydı, hətta ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına və sərəncamlarına da laqeyd yanaşılmazdı.

Bir daha görünür ki, ekspertlər haqlıdırlar: sənədsiz evlər bir sıra məmurlar üçün qeyri-rəsmi qazanc mənbəyidir deyə, onlara problemi yoluna qoymamaq daha çox sərf edir. Ona görə də sənədsiz evlərin qeydiyyatı ilə bağlı daha kəskin addımlar atılmasının zamanı yetişib...

***Sənan Mirzə***

UNI-40_27 IYUI-QARA.qxd 11/16/2023 10:09 PM Page 10



# Cahangir Əsgərovun yaxın ətrafında "falçı qalmaqalı"

## Sabiq iri məmurun qardaşı oğlu 20 min dolları 200 min dollara necə çevirtdirmək istəyib?

***Bu yaxınlarda "Azərbaycan Hava Yolları" (AZAL) Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sabiq prezidenti Cahangir Əsgərovun adı maraqlı qalmaqalda hallanıb. Məlum olub ki, onun qardaşı oğlu Cəlal Əsgərovun şikayəti əsasında 4 avqust 2023-cü il tarixdə barəsində axtarış elan edilən, sentyabrın 30-da saxlanılaraq həbs olunan ekstrasens barəsində məhkəmə qərar verib.***

Belə ki, 1977-ci il tarixdə Özbəkistan Respublikasında anadan olmuş "Katya" ləqəbli Ekaterina Aleksandrovna Cinayət Məcəlləsinin 178.2.2 və 178.2.4-cü maddələrində nəzərdə tutulmuş cinayət əməlini törətməkdə təqsirli bilinib, 2 il 6 ay müddətinə azadlıqdan məhrum



edilib.

"Qaynarinfo"nun məlumatına görə, aparılan araşdırma zamanı məlum olub ki, Ekaterina Aleksandrovna Cəlal Əsgərovla yanaşı, onun həyat yoldaşı Anastasiya Georqiyevnanı da ekstrasens fəaliyyəti ilə məşğul olmasına inandıraraq, ailə həyatında yaranmış çətinlikləri müxtəlif ayinlər keçirərək "şər qüvvələr"dən təmizləyəcəyinə dair vəd verib və etibarından sui-istifadə edib.

Cəlal Əsgərov evlilik həyatı davam edərkən işləri yaxşı getmədiyinə görə dostu Fəridin vasitəsi ilə ekstrasens Ekaterina Aleksandrovna ilə tanış olub. Eyni vaxtda Fəridin həyat yoldaşı Bilqeyis də Cəlalın xanımı Anastasiya Georqiyevnanı ekstrasenslə tanış edib.

"Katya" kimi də tanınan ekstrasens əvvəlcə Cəlala qurban kəsilməsi üçün 8 qoyun lazım olduğunu deyərək, hər bir heyvan üçün 120 manat olmaqla ümumilikdə 960 manat pul alıb. Ekstrasensin ifadəsinə görə, Cəlal ondan əmisi Cahangir Əsgərovla münasibətlərinin yaxşılaşması, sabiq AZAL prezidentinin yalnız ona dəstək olması, həmçinin qeyri-leqal işlərindən əmisinin xəbər tutmaması üçün rituallar icra etməyini xahiş edib. Həmçinin həyat yoldaşı Anastasiyanın bəd nəzərdən təmizlənməsini istəyib. Xanım ekstrasens müxtəlif vaxtlarda Cəlaldan 4 min dollar, 1300 manat və digər məbləğlərdə pul alıb.Həmin vaxt Ekaterina Cəlala duz verməklə uşağının başını onunla yudurtmağı bildirib. Həmçinin 100 manatlıq şirniyyat alaraq uşaqlara paylamaq lazım olduğunu qeyd edib.

Ən maraqlısı isə 2020-ci ilin iyul ayından başlayaraq Ekaterina mütəmadi olaraq telefonda Cəlala yazaraq "20.000 dollar ver, həmin pulu 200.000 dollara çevirib, qaytaracam" deməsi olub. Cəlal ona inanaraq 4 sentyabr 2020-ci il tarixdə 20.000 dollar məbləğində pulunu Ekaterinanın mənzilində ona verib.Bundan sonra o, yanvar ayını gözləyib, lakin Ekaterina pulunu qaytarmayıb. Cəlal artıq anlayıb ki, Ekaterina onu aldadırmış və söhbətlərin birində bu barədə həyat yoldaşı Anastasiyaya deyib. Anastasiya da "Katya"nın onu aldatdığını Cəlala etiraf edib. Məlum olub ki, Ekaterina Aleksandrovna Cəlalın həyat yoldaşının qiyməti 10.519 avro olan bir karat birilliantdan ibarət tək qaş ağ qızıldan hazırlanmış nişan üzüyünü və xeyli miqdarda pulunu ələ keçirib.

Cəlal və həyat yoldaşı, onların ailə dostu Fərid və onun xanımı ekstrasens barəsində polisə şikayət ediblər.

Qeyd edək ki, ekstrasens fəaliyyəti ilə məşğul olaraq digər şəxslərə də maddi ziyan vuran Ekaterina Aleksandrovna Özbəkistan Respublikasının vətəndaşı olsa da, 2013-cü ildən Azərbaycanda yaşayır. O əvvəlcə Bakı şəhəri ərazisində yerləşən kafelərin birində qab yuyan işləyib, sonradan isə yaşadığı ünvanda salatlar düzəltməklə onlayn satışı ilə məşğul olub. Daha sonra tələbat çox olduğundan ekstrasens fəaliyyəti ilə məşğul olmağa başlayıb.

"Unikal"ın araşdırması zamanı o da aydınlaşıb ki, AZAL-ın sabiq "şef"inin qardaşı oğlu olan Cəlal Əsgərovun adı illər öncə başqa bir qalmaqalda hallanıb. Həmin vaxt yerli media yazıb ki, "Color Consulting" adlı şirkət Cəlal Əsgərova məxsus olan "Luxe Media" və "CR and Ko" şirkətləri ilə pul mübahisəsi yaşayıb. Belə ki, "Color Consulting" Cahangir müəllimin qardaşı oğlunun şirkətləri ilə 2 il müddətində əməkdaşlıq ediblər. Bu müddətdə onlar üç jurnalın çapından öncəki işləri həyata keçiriblər. Lakin Cəlal Əsgərov jurnalların nəşrinə görə öncədən razılaşdırılmış məbləğ ödəmədiyi halda belə, jurnalların yeni buraxılışının çap olunmasını tələb edirmiş. Sonda isə çapa görə ödənilməyən məbləğ rekord rəqəmə - 50 810,40 avro (35 548 avro "CR and Ko" şirkətinə və 15 262,40 avro "Luxe Media" şirkətinə görə) yüksəlir. "Color Consulting" şirkətinin Rusiya filialı qeyd edib ki, borcun ödənilməməsi şirkətin beynəlxalq ofisində də müzakirə olunduqdan sonra bu barədə məhkəməyə müraciət ediblər. Nəticədə, "Luxe Media" tərəfindən 15 262,40 avro məbləğində borc ödənilib. "CR and Ko" şirkətinin borcları üzrə aparılan məhkəmə proseslərində isə Cəlal Əsgərov iştirakdan imtina edib. Bundan sonra "Color Consulting" Azərbaycanda bu iş adamı ilə əməkdaşlıq edən insanları ehtiyatlı olmağa çağırıb.

Bu qalmaqal ictimailəşdikdən sonra Cəlal Əsgərov ona yönələn ittihamlara heç bir reaksiya verməyib.

Ötən il isə Cahangir Əsgərovun qardaşı oğlu barədə başqa bir iddia gündəmə gəlib. "Yenisabah.az"ın iddiasına görə, auditorlar AZAL-da dövlət vəsaitinin şəxsi mənafe üçün sərf olunmasına dair təkzibedilməz faktlar üzə çıxarıblar. Bunlardan biri də Cahangir Əsgərov və ailə üzvləri ilə yanaşı, onun qardaşı ilə qardaşı oğluna (eləcə də digər yaxın qohumlarına) məxsus bahalı avtomobillərin müqavilə ilə AZAL-a xidmət göstərən müəssisələrdə təmir olunmasıdır. "Bu məqsədlə havaya sovurulan vəsaitin miqdarı bir neçə yüz min dollar civarındadır. Onun sözlərinə görə, Cahangir Əsgərovun qardaşı və qardaşı oğlu özlərinin bahalı avtomobillərinə aid bütün hissələri AZAL-ın vəsaiti hesabına sürətli daşıma yoluyla ABŞ-dan gətiriblər. Cahangir Əsgərovun qardaşına məxsus 1990-ci il istehsalı olan xarici avtomobilin yenidən yığılması və rənglənməsi üçün AZAL-ın büdcəsindən düz 50 min dollar vəsait xərclənib. Cahangir Əsgərovun avtomobil həvəskarı olan digər yaxın qohumları da dövlət şirkətinin büdcəsinə külli miqdarda ziyan vurublar. Onların qiyməti 50 dollara olan ehtiyat hissəsini sürətli daşıma yoluyla ABŞ-dan 200 dollara gətirdiklərinə dair faktların ortaya çıxdığı qeyd olunur" deyə sayt yazıb.

Lakin həmin vaxt da Əsgərovlar bu iddialara reaksiya verməyiblər və səsləndirilən ittihamları susqunluqla qarşılayıblar.

Yeri gəlmişkən, Azərbaycanda bəzi iri məmurlar və onlara yaxın şəxslərin ekstrasenslərlə, falçılarla bağlı qalmaqalları barədə xəbərlər son vaxtlar yenidən intensivləşib. Bu barədə növbəti sayımızda ətraflı bəhs edəcəyik.

***Toğrul Əliyev***



# AQTA bu ay 200-dən artıq dönərxanada monitorinq aparıb

***Qida Təhlükəsizliyi Agentliyi (AQTA) noyabrın ilk ongünlüyündə 200-dən artıq dönərxanada monitorinq aparıb.***

AQTA-dan "Unikal"a verilən məlumata görə, əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi istiqamətində həyata keçirilən nəzarət tədbirlərinin davamı olaraq, dönərxanalarda hazırlanan hazır dönərlərin keyfiyyət və təhlükəsizliyinin qiymətləndirilməsi məqsədilə Bakı şəhərinin müxtəlif ərazilərində dönər satışı həyata keçirilən qida obyektlərində monitorinqlər keçirilib. Monitorinqlər çərçivəsində noyabr ayının ilk ongünlüyündə 107 toyuq əti və 102 mal əti olmaqla, ümumilikdə, 209 hazır dönərdən nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim edilib.

Araşdırmalar davam etdirilir.

Qeyd edək ki, AQTA dönər hazırlanan müəssisələrdə aparılan nəzarət tədbirlərinin miqyasını daha da genişləndirib. Xatırladaq ki, bu ilin 9 ayı ərzində respublika ərazisində 8-i planlı, 4-ü plandankənar olmaqla, 12 çiy dönər istehsalı, həmçinin 54-ü planlı, 36-sı plandankənar olmaqla, 90 dönər hazırlanan ictimai iaşə müəssisəsində yoxlama aparılıb.

Vətəndaşlar istehlak etdikləri qida məhsulları ilə bağlı şübhə yarandıqda, bu barədə konkret faktlarla Agentliyin "1003-Çağrı Mərkəzi"nə məlumat verə bilərlər. Müraciət daxil olduqdan dərhal sonra araşdırmalara başlanılacaq və qanunvericiliyə uyğun müvafiq tədbirlər görüləcəkdir.

# Füzulidə bələdiyyə sədrləri cərimələndi

***Füzulidə bələdiyyə sədrləri barəsində inzibati protokollar tərtib olunub.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, Füzuli Rayon Polis Şöbəsi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlarının ətraf mühitin mühafizəsinin daha da gücləndirilməsi, sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə birgə keçirdikləri tədbir zamanı rayonun Əhmədalılar və Bala Bəhmənli kəndlərinin ərazisində məişət tullantılarının qalaqlanması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi halı aşkar olunub. Həmin kəndlərin bələdiyyə sədrləri barəsində İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsi ilə protokollar tərtib olunub.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

# Sərhədi pozmağa cəhd edən şəxs saxlanıldı

***Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin İmişli rayonunun Aranlı kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində sərhəd naryadının sayıqlığı nəticəsində hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 1995-ci il təvəllüdlü Goranboy rayon sakini İsgəndərov Telman Tərlan oğlu Azərbaycan Respublikasından İran İslam Respublikası istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərərkən saxlanılıb.***

Bu barədə "Unikal"a Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzinin məlumat verib.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Ötən ay 1000-dən çox qanunsuz miqrant saxlanılıb



***Azərbaycanda ötən ay 1000-dən çox qanunsuz miqrant saxlanılıb.***

Dövlət Miqrasiya Xidmətindən "Unikal"a verilən xəbərə görə, DMX-nin qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirləri zamanı Azərbaycan Respublikasında iş vədi ilə aldadılaraq ölkəyə gətirilən, iş icazəsi əldə edilmədən əmək fəaliyyətinə cəlb edilən, həmçinin ölkədə ünvan qeydiyyatına alınmadan və yaşama hüququ verən sənədlər olmadan (qanunsuz) yaşayan 9 əcnəbi saxlanılıb.

Bildirilib ki, araşdırma nəticəsində həmin əcnəbilərin öz həmvətənləri tərəfindən 1400-2500 dollar müqabilində Azərbaycanda əmək fəaliyyəti ilə məşğul olmaq vədi ilə aldadılaraq ölkə ərazisinə gəlmələrinin təşkil edildiyi, qeydiyyata alınmadıqları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün müvafiq icazələr əldə edilmədiyi və qanunsuz miqranta çevrilmələrinə şərait yaradıldığı müəyyənləşdirilib.

Qeyd edilib ki, qanunsuz miqrasiyanın təşkilinə dair əsaslı faktlar müəyyən edildiyindən aşkar edilən hallarla bağlı materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti hüquq-mühafizə orqanına göndərilib:

"Ümumilikdə, 2023-cü ilin oktyabr ayı ərzində qanunsuz miqrasiyaya qarşı keçirilən tədbirlər zamanı Dövlət Miqrasiya Xidməti tərəfindən 1001 əcnəbi saxlanılıb. Onların ölkə ərazisində olma və yaşama hüququ verən sənədlər olmadan (qanunsuz) yaşaması, ölkəyə gəlişinin bəyan edilmiş məqsədinə uyğun olmayan fəaliyyətlə məşğul olması, qanunsuz əmək fəaliyyətinə cəlb edilməsi və ya qeydiyyat ünvanı üzrə yaşamadığı müəyyənləşdirilib. Həmin dövr ərzində miqrasiya qanunvericiliyini pozan 292 əcnəbi Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılıb və ölkəyə girişləri qanunla müəyyən edilmiş müddətə məhdudlaşdırılıb, digərlərinin ölkə ərazisində yaşamalarının qanuniləşdirilməsi və ya ölkəni könüllü tərk etmələri təmin olunub. Eyni zamanda ölkədə olma, yaşama, əcnəbilərin işə cəlb olunması və digər aidiyyəti məsələlərlə bağlı ümumilikdə 2108 inzibati qərar qəbul edilib.

Vətəndaşlardan qanunsuz miqrasiya halları ilə rastlaşdıqda Dövlət Miqrasiya Xidmətinin (012) "919" Çağrı mərkəzini məlumatlandırmaları xahiş olunur. Çağrı mərkəzi həftənin 7 günü 24 saat fəaliyyət göstərir".

# Siyəzəndə sənaye məhsullarının istehsalı artıb

***2023-cü ilin yanvar-sentyabr ayları ərzində 17702,9 min manatlıq və ya 2022-ci ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 73,5 faiz çox sənaye məhsulu istehsal edilmiş və sənaye xidmətləri göstərilib.***

İstehsalın ümumi həcmində mədənçıxarma sektoru 18,4 faiz, emal sektoru 32,5 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektoru 42,2 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektoru 6,9 faiz təşkil edib. Məhsulun 40,4 faizi qeyri-dövlət sektorunun payına düşmüş və 2022-ci ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 61,2 faiz artıb.

Mədənçıxarma sektorunda 2023-cü ilin yanvar-sentyabr ayları ərzində 3260,3 min manatlıq məhsul istehsal edilmiş, 2022-ci ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 3,5 dəfə artıb.

Emal sektorunda 2023-cü ilin yanvar-sentyabr ayları ərzində 5745,6 min manatlıq məhsul istehsal edilib, 2022-ci ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 37,7 faiz azalıb.

Emal sektorunda 2022-ci ilin müvafiq dövrünə nisbətən qida məhsullarının istehsalı 38,2 faiz azalıb.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın real həcmi 2022-ci ilin yanvar-sentyabr aylarına nisbətən 2,1 faiz artmış, rayon əhalisinə və digər istehlakçılara 70,04 QVT-saat elektrik enerjisi, 24,1 milyon kub metr təbii qaz, 0,61 min Q.kal istilik enerjisi verilib.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsalın həcmi 25,7 faiz artmış, əhaliyə və digər istehlakçılara 1,32 milyon kub metr təbii su verilib.

*Kamil Xəlilov*
*Siyəzən Rayon Statistika İdarəsinin rəisi*

# Dövlət Məşğulluq Agentliyindən narazılıqlar səngimir

## Özünüməşğulluq proqramının icrasında çatışmazlıqlar bir-birini əvəzləyir




***Bu günlərdə özünüməşğulluğa cəlb edilən daha bir vətəndaşın şikayəti yayılıb. Belə ki, özünüməşğulluq proqramına cəlb edilən Şabran sakini ona verilən avadanlıqlardan narazılığını bildirib.***

Bir az da dəqiqləşdirsək, Şabranın Günəşli kənd sakini Eynulla Mərdanov Xəzər TV-yə bildirib ki, özünüməşğulluq proqramına cəlb edilib. Plastik qapı-pəncərə ustası olan vətəndaş yeni texniki avadanlıq almaq qərarına gəlib.

İki ildən sonra Dövlət Məşğulluq Agentliyinin Regional şöbəsindən ona yeni avadanlıq verilib. Amma plastik qapı-pəncərə istehsalı ilə məşğul olan şəxs ona təqdim edilən alətlərdən ikisinin uyğunsuz olduğunu iddia edir.

Ona görə də Eynulla Mərdanov aidiyyəti üzrə müraciət edərək avadanlığın dəyişdirilməsini istəyir.

Məsələyə münasibət bildirən Dövlət Məşğulluq Agentliyinin mətbuat katibi Əsmər Nəcməddinqızı deyib ki, proqrama müraciət edən hər bir vətəndaşa seçdiyi zərfin tərkibində hansı avadanlıqların olduğu barədə məlumat verilir. Zərflərin tərkibi adıçəkilən qurumun saytında yerləşdirilir.

Daha bir şikayət isə Xaçmaz rayonundan gəlib. Bizim-Media-nın məlumatına görə, rayonun Hacıqazma kənd sakini Ələddin Talıbov çətin duruma düşüb. Belə ki, o, kənddə özünə fərdi iş qurmaq, dövlətin kəndlilər üçün yaratdığı özünüməşğulluq proqramına qoşulmaq üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinə müraciət edib. 2019-ci ildə agentlikdə növbəyə durub. Dörd ildən sonra - 2023-cü il iyul ayının 11-də növbəsi çatanda ona 21 baş qoyun verilib.

Onun qara günləri də elə bundan sonra başlayıb.

Ələddin Talıbova verilən qoyunlardan 5-i alandan 12 gün sonra tələf olub. Deyir ki, həmin vaxtdan proqramın şərtləri pozulub: "Müqavilədə göstərilir ki, vətəndaş heyvanları almamışdan 10 gün əvvəl şərtlərlə tanış olmalıdır. Mən bu müqavilə ilə heyvanlar mənə verilən gün tanış oldum. Təhvil-təslim aktı ilə bir yerdə müqavilənin şərtləri ilə tanış oldum. Müqavilədə göstərilir ki, vətəndaş hər hansı qüsur olarsa, heyvanları alandan 30 gün sonra Agentliyin filialına müraciət edə bilər. Alandan 12 gün sonra heyvanlar tələf olmağa başlayıb. Mən də dərhal müraciət etmişəm, baytar gəlib, ölü heyvan cəsədlərini yarıb və protokol tərtib edilib".

Ələddin Talıbov ölən qoyunlardan 4-nün dişi, birinin isə qoç olduğunu bildirib. O, hesab edir ki, burada da müqavilə şərtləri pozulub: "Şərtlərə görə, qoyunların artımı üçün verilən qoç 2-4 yaşında olmalıdır, mənə verilən qoç isə quzu idi. Onunla necə artım olacaqdı ki? Üstəlik həmin quzu da öldü, indi heç artım olmayacaq, həm də qalan qoyunlar da sağlam deyil, xəstədir".

Şikayətçi rəsmi qurumlara dəfələrlə yazılı müraciət etməsinə baxmayaraq, heç bir nəticə əldə etmədiyini bildirir.

Özünün Birinci Qarabağ Müharibəsi iştirakçısı olduğunu deyən şikayətçinin Dövlət Məşğulluq Agentliyindən tələbi odur ki, ona ölmüş heyvanların əvəzinə yeni heyvanlar verilsin və xəstə qoyunlar sağlamları ilə əvəz olunsun. Belə olarsa, o fərdi təsərrüfatında qoyunçuluğu inkişaf etdirə bilər.

Qeyd edək ki, haqqında danışdığımız hər iki şikayət son 10 gündə edilib. Bundan əvvəl isə oxşar məzmunlu şikayətlərə mediada dəfələrlə rast gəlinib. Aydın görünür ki, Dövlət Məşğulluq Agentliyinin təkzib etməsinə baxmayaraq özünüməşğulluq proqramının icrasında ciddi çatışmazlıqlar var və həmin çatışmazlıqların əziyyətini özünə iş qurmaq, təsərrüfat yaratmaq istəyən vətəndaşlar çəkirlər.

Məsələ zaman-zaman deputatların da diqqət mərkəzinə düşüb və onlar adıçəkilən Agentliyin fəaliyyəti ilə bağlı tənqidi fikirlər səsləndiriblər. Məsələn, Milli Məclisin üzvü Razi Nurullayev bir müddət öncə bildirib ki,bu günə qədər Məşğulluq Agentliyindən razı qalan vətəndaşa hələ rast gəlməyib. Sitat: "Dövlət Məşğulluq Agentliyinin fəaliyyətində ciddi dönüşə nail olmaq lazımdır.... Bu qurum, ümumiyyətlə, qarşısına qoyulan vəzifəni həyata keçirə bilmədi. Onun yaradılmasında məqsəd vətəndaşların işlə təmin olunması, ehtiyaclarının ödənilməsi, məşğulluqlarını yaratmaları idi. Həqiqətən bunun çərçivəsində xeyli addımlar atıldı. İnsanlara mal-heyvan paylanıldı, müəyyən avadanlıqlar verildi, məşğulluq üçün şərait yaradıldı. Amma bütün bunların 100-dən 90-ı özünü doğrultmur... Heyvanı alan aparıb satır, sonra adını qoyur ki, mənə xəstə heyvan verilmişdi. Müəyyən yerlərdə vətəndaşa xəstə heyvan verilə bilər. Bunları istisna etmirəm. Amma bəziləri mal-heyvanı alır, səhəri günü bazara çıxarırlar... Lakin elə insanlar var ki, onlar doğrudan da heyvan saxlamaq istəyirlər, amma Agentlikdən bunu ala bilmirlər. Təzadlı məqamlar çoxdur. Bunun hansısa yolunu tapıb, vətəndaşlara xidmət göstərmək lazımdır... Ümumiyyətlə, hazırda Məşğulluq Agentliyində göstərilən xidmətlərin səmərəliliyi yoxdur. Kifayət qədər insan tanıyıram ki, özünüməşğulluqla məşğul olmaq istəyir. Lakin bunun üçün lazım olan avadanlıqları ala bilmirlər. Kim səs-küy salır, onlara verilir..."

Dövlət Məşğulluq Agentliyində isə səslənən tənqidlərlə razı deyillər. Qurumun rəsmi açıqlamalarından belə görünür ki, özünüməşğulluq proqramının icrası yüksək səviyyədə davam etdirilir. Belədə sual yaranır: bəs onda proqrama cəlb edilən vətəndaşların bu qədər çox şikayət etməsinin sirri, yaxud səbəbi nədir?!

*Toğrul Əliyev*

UNI-40_27 IYUI-QARA.qxd 11/16/2023 10:10 PM Page 12



**5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan demoqrafik partlayışın astanasında

## Cinsi ayrıseçkiliyə görə Çini qabaqlamağımız demoqrafiya üçün yaxşı gələcək vəd etmir



***Azərbaycanda "qız yükü, duz yükü", "qız ağacı, qoz ağacı" kimi məsələlər hələ ötən əsrdə istifadə olunsa da, ölkəmizin hazırkı demoqrafik mənzərəsi bu gün də qız uşaqlarının doğulmasına yük kimi baxan ailələrin olduğunu təsdiqləyir.***

BMT-nin Əhali Fondunun baş müşaviri Fərid Babayev bu yaxınlarda çıxışı zamanı bildirib ki, Azərbaycan uşaqların cins seçiminə görə dünyada birinci yerdədir. Onun sözlərinə görə, 2021-ci ildə bu məsələdə birinci yerdə olan Çini belə üstələmişik. Belə ki, BMT-nin Əhali Fondunun demoqrafik təhlillərinə görə, cinslər arasında bioloji norma hər 100 qıza 102-106 oğlan nisbətindədir. 2022-ci ilin statistikasına əsasən, Azərbaycanda bu rəqəm hər 100 qıza 112 oğlan təşkil edir. Ölkəmizdə 2022-ci il üzrə doğumu qeydə alınmış 122 min 846 nəfərdən 64 min 940-ı oğlan, 57 min 906-ı isə qızdır. Bu oktyabrın 25-də Milli Məclisdə müzakirə edilən Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2022-ci il üzrə hesabatında əksini tapıb. Bildirilib ki, cinslər arasındakı fərq 7 min 34 nəfərdir. Cins nisbəti hər 100 qıza 112 oğlan təşkil edir. Hesablamalara görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam edərsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12 000-15 000 nəfər çox olacaq.

Ölkəmizdə cinsi ayrıseçkiliyin olduğunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Qadın problemləri və gender məsələləri şöbəsinin əməkdaşı Sədaqət Rəhimova da təsdiqləyir. Sədaqət Rəhimova bildirib ki, Azərbaycanda doğulan uşaqlar arasında cins nisbətinin pozulmasının ən geniş yayılmış halı selektiv abortlardır.Həmsöhbətimiz bildirib ki, Azərbaycan Respublikasının qanunvericiliyində cinsi mənsubiyyətinə görə ayrı-seçkilik yolverilməz olsa da, belə halların olması danılmazdır. Onun sözlərinə görə, bir çox ailələrdə qadınların reproduktiv sağlamlıq hüquqları qorunmur, ailə üzvlərinin istəyinə əsasən qadın hamiləliyi süni şəkildə dayandırmağa məcbur edilir. S. Rəhimova bildirib ki, hətta bəzi hallarda qadın yalnız qız uşaqları dünyaya gətirdiyi üçün tərk edilir. Komitə səlahiyyətlisi qeyd edib ki, oğlan uşaqlarına üstünlüyün verilməsi ölkədə mövcud olan gender stereotipləri, oğlan uşaqlarına daha yüksək dəyər aşılayan patriarxal ailə strukturu və sosial normaların təzahürüdür.

Məlumat üçün bildirək ki, Azərbaycanda selektiv abortların aparılması qadağandır. Cinayət Məcəlləsinin 141-ci maddəsinə görə, qanunsuz abort etmə 500 manatdan-1000 manatadək cərimə, 6 ayadək islah işlərilə cəzalandırılır. Amma bununla belə qanunsuz abort etmə hallarına hələ də rast gəlinir. Qadının istəyinə görə, hamiləlik 12 həftəyədək pozula bilər. Çünki, 12 həftədə dölün cinsini tam təyin etmək mümkün deyil. Ancaq hamiləliyin 14-16 həftə arasında dölün cinsini təyin etmək mümkündür. Bu həftələrdə isə abort ancaq tibbi göstərişlər əsasında həyata keçirilə bilər.

BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Fərid Babayev də mətbuata açıqlamasında bildirib ki, birinci uşaqlarda valideynlər uşağın cinsinə əhəmiyyət verməsələr də, ikinci, üçüncü uşaqda cins seçimi edirlər.Onun sözlərinə görə, valideynlərin hər ikisi də istəyir ki, ikinci doğulacaq uşaq oğlan olsun. Beləliklə, ikinci uşaqda selektiv abort faizi artıq 20-yə çatır. O, bildirib ki, əgər ailənin hər iki övladı qızdırsa, üçüncü hamiləlikdə selektiv abortların daha kəskin artımı müşahidə edilir.

"Statistika göstərir ki, selektiv abortların təxminən 80 faizi iki qız uşağından sonrakı üçüncü hamiləlikdə baş verir. Təəssüf ki, oğul istəyi hələ də Azərbaycan ailələrində çox geniş yayılıb" - Babayev bildirib.

F. Babayev səbəblərdən biri kimi, hamiləlik dövründə dölün cinsini öyrənməyə imkan yaradan texnologiyaların geniş yayılmasını da xüsusi qeyd edib. Onun sözlərinə görə, ana bətnindəki dölün cinsiyyətini öyrənmək imkanı olduğu üçün ailələrin oğlan-qız seçimi etmə imkanları da artır.

"Qanunvericilikdə ultrasəs müayinəsi ilə dölün cinsini söyləmək qadağandır. Amma bu qadağaya riayət olunmur. Bu işləri qanunvericiliklə tənzimləmək elə də asan deyil. Güclü təbliğat və maarifləndirmə işi aparılmalıdır. Bizim istədiyimiz odur ki, hamiləliyin 12-ci həftəsindən, yəni dölün cinsini müəyyən etmək mümkün olduqdan sonra edilən abortlar yalnız tibbi göstəriş olduğu halda həyata keçirilsin, cins seçiminə görə yox"deyə F. Babyev söyləyib.

Xatırladaq ki, "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" təsdiq edilib. Tədbirlər Planının əsas məqsədi uşaqların doğulanadək cins seçiminin qarşısının alınması və ailələrdə doğulan uşaqlar arasında qız uşağına nisbətən oğlan uşağına üstünlüyün azaldılması, bu üstünlüyün kökündə dayanan gender stereotiplərinin aradan qaldırılmasıdır. Tədbirlər Planında əks olunan bəndlərlə bağlı aidiyyatı icraçı qurumlar tərəfindən müvafiq tədbirlər həyata keçirilir.

*Gülayə Mecid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# DMX və MEDİA-nın birgə təşkilatçılığı ilə seminar keçirildi

***Dövlət Miqrasiya Xidmətinin (DMX) və Medianın İnkişafı Agentliyinin (MEDİA) birgə təşkilatçılığı ilə Miqrasiya üzrə Regional Təlim Mərkəzi çərçivəsində "Miqrasiya maarifləndirilməsində medianın rolu və peşəkar media" mövzusunda seminar keçirilib.***

"Unikal" xəbər verir ki, media nümayəndələrinin miqrasiya sahəsində məlumatlılığının artırılması məqsədilə təşkil olunan tədbirdə DMX və MEDİA rəsmiləri, media nümayəndələri iştirak ediblər.

Tədbirdə açılış nitqi ilə çıxış edən Dövlət Miqrasiya Xidmətinin rəisi, II dərəcəli dövlət miqrasiya xidməti müşaviri Vüsal Hüseynov miqrasiyanın daha səmərəli idarə edilməsində cəmiyyətin, eyni zamanda medianın aktiv iştirakının xüsusi əhəmiyyət kəsb etdiyini bildirib. Xidmət rəisi media nümayəndələri, vətəndaş cəmiyyəti, elmi dairələr, özəl sektor, miqrant icmaları və digər maraqlı tərəflər arasında ideya və təcrübə mübadiləsinin miqrasiya sahəsində çətinlikləri müəyyən etmək, innovativ metodlardan istifadə etmək, habelə miqrasiya siyasətində kompleks yanaşmanı təmin etmək üçün vacib bir vasitə olduğunu vurğulayıb. Medianın miqrasiya fenomeninin daha yaxşı və düzgün başa düşülməsində, habelə cəmiyyətdə miqrasiya ilə bağlı yanlış təsəvvürlərin yayılmasının qarşısının alınmasında mühüm rol oynadığını diqqətə çatdırıb.

Sonra Xidmət rəisi "Azərbaycanda miqrasiya idarəçiliyi" mövzusunda ətraflı təqdimatla çıxış edib, media nümayəndələrini maraqlandıran sualları cavablandırıb.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov birgə seminarda Azərbaycanda miqrasiya idarəçiliyi, bu sahədə əsas konseptlər, qlobal miqrasiya trendləri, Xidmətin maarifləndirmə alətləri, informasiya sorğularına dair tələblər, o cümlədən media məlumatlılığı və peşəkar media fəaliyyətinin təşkili ilə bağlı təqdim ediləcək çıxışların media təmsilçiləri üçün faydalı olacağını qeyd edib. Əhməd İsmayılov Agentlik tərəfindən media nümayəndələrinin peşəkarlığının artırılması və ixtisaslaşmasının təmin edilməsi üçün çoxsaylı təlimlərin həyata keçirildiyini və bugünkü birgə seminarın da sahəvi jurnalistikanın inkişafı istiqamətində xüsusi əhəmiyyətini vurğulayıb, seminarın işinə və hər bir iştirakçıya uğurlar arzulayıb.

Seminar çərçivəsində Medianın İnkişafı Agentliyinin eksperti Pərvanə İbrahimova, Kommunikasiya şöbəsinin müdiri Səidə Şəfiyeva, həmçinin Dövlət Miqrasiya Xidmətinin əməkdaşları - Aygül Abbaszadə və Elvin Məmmədov miqrasiya üzrə əsas konseptlər və terminlər, qlobal miqrasiya trendləri, media məlumatlılığı və peşəkar media fəaliyyətinin təşkili, Dövlət Miqrasiya Xidmətinin maarifləndirmə alətləri, informasiya sorğularına dair tələblər mövzusunda təqdimatlarla çıxış ediblər.

Səmərəli müzakirələr mühitində davam edən seminarın sonunda xatirə şəkili çəkilib.

UNI-40_27 IYUI-QARA.qxd 11/16/2023 10:10 PM Page 13





# Ürəklərdə yaşayan şəhid leytenant...

***İkinci Qarabağ müharibəsində minlərlə qeyrətli Vətən oğulları son damla qanına qədər döyüşərək bizlərə zəfər sevincini bəxş etdilər. İndi adında bütöv bir xalqın qəhrəmanlıq simvolunu yaşadan Emil Vaqif oğlu Qurbanov da haqq savaşımızda qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucaldı. Şərəfli ölümü ilə xalqına, Vətəninə şöhrət olan, ürəklərdə özünə əzəmətli abidə ucaldan Emillə doğulub boy- başa çatdığı Lənkəran camaatı daha çox fəxr edir. Lənkəranlılar əlçatmaz, ünyetməz ulduzlar dünyasından boylanan öz qəhrəman oğlunu heç vaxt unutmur, onun şərəfinə layiqli işlər görürlər. Hazırda Lənkəranda Emilin örnək ömrünü özündə əks etdirən, camaatın and yerinə çevrilən yadigarlar çoxdur.***

Bu günlərdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, icra aparatının rəsmi şəxsləri, rayon ictimaiyyətinin nümayəndələri və şəhid ailələrinin üzvləri Emil Qurbanovun məzarını ziyarət edib, xatirəsinə ehtiram olaraq önünə gül dəstələri düzdülər.

Söhbət əsasında bildirildi ki, haqq savaşımızda qəhrəmanlığı ilə ölümsüzlüyə qovuşan Emil bizim üçün iftixar yeri, qürur mənbəyidir. O, Vətən, millət yolunda şüurlu surətdə canını fəda etdi. Odur ki, qərinələr boyunca şərəfli həyat yolu nümunə olacaq. Bəli, Emil özündən sonra örnək olacaq bir tarix yazdı, dövlət də öz qəhrəman oğlunu "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", Qubadlının, Cəbrayılın azadlığına görə medallarına layiq gördü.

Ömrünün 40-cı ilində müqəddəsliyinə tapındığı Vətənin yaşaması naminə canından keçən Emil Qurbanov Lənkəran Dövlət Universitetini bitirmişdi. 2002-2003-cü illərdə həqiqi hərbi xidmətdə olan Emil Qurbanov leytenant rütbəsi alaraq rayonuna qayıdır. Hərb sahəsinə sonsuz marağı onu yenidən, üç aylıq fasilədən sonra ordu sıralarına aparır. O, 2003-cü ilin oktyabrında Tərtər rayonunun "N" saylı hərbi hissəsində tağım komandir vəzifəsində Vətənin keşiyində durur. 2005-ci ilədək burada hərbi xidmətini davam etdirir. 2005-ci ildə yenidən Lənkərana qayıdan Emil "Zirvə" idman kompleksində məşqçi-müəllim işləməyə başlayır, idman müəllimi kimi müxtəlif yarışlarda iştirak edir. Daha sonra o, Lənkəran Şəhər Uşaq Gənclər İdman Məktəbində məşqçi-müəllim vəzifəsinə təyin olunur. 2012-ci ilin sentyabrınadək orada fəaliyyət göstərir. Seçdiyi ixtisası çox sevdiyi üçün E.Qurbanov müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edərək, bir vaxtlar təhsil aldığı Lənkəran şəhər A.Məhərrəmov adına 7 saylı tam orta məktəbində gənclərin təlim-tərbiyəsi ilə məşğul olur.

Qarabağın işğalına qarşı həmişə barışmaz mövqeyini ortaya qoyan Emil 2020-ci il 27 sentyabrda haqq savaşımız başlananda Vətənin harayına birinci səs verir, gözünü qırpmadan əlinə silah alır, özünü odlu-alovlu səngərə atır. Tağım komandiri kimi leytenant Emil Qurbanov Füzuli, Cəbrayıl, Xocavənd və Qubadlı uğrunda gedən döyüşlərdə rəşadət göstərir. Düşmənə qan qusdura-qusdura qanlı-qadalı yollar keçir. Qubadlının düşməndən azad olunması uğrunda ağır döyüşdə iki güllə yarası alaraq qəhrəmancasına əbədiyyət adlı dünyasına qovuşur.

***Zəfər Orucoğlu, AJB üzvü***

# 2023-cü ilin ötən dövründə Ucarda iqtisadi sferada statistika belə olub

***Sənaye müəssisələrində və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2023-cü ilin yanvar-sentyabr aylarında 10062,0 min manatlıq məhsul istehsal edilmişdir. Sənaye istehsalı indeksi 99,1 faiz təşkil etmişdir. Cəmi istehsalın 10062,0 min manatı və ya 100,0 faizi müəssisələrin və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarların əsas fəaliyyətindən yaranıb.***



2023-cü ilin yanvar-sentyabr aylarında sənaye sahəsində istehsalın və xidmətlərin həcminin 2701,2 min manatı və ya 26,8 faizi dövlət sektorunun, 7360,8 min manatı və ya 73,2 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal və xidmətlərin həcminin 2005,8 min manatını və ya 19,9 faizini elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsi, 466,2 min manatını və ya 7,3 faizini su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsi, 7320,7 min manatını və ya 72,8 faizini isə emal sənayesi sahəsi təşkil edib.

2023-cü ilin yanvar-sentyabr aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri müqayisəli qiymətlərlə 2022-ci ilə nisbətən 5,2 faiz artaraq 30837,2 min manat təşkil etmişdir, Hüquqi şəxslər tərəfindən əhaliyə 7555,2 min manat, hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 23282,0 min manat xidmətlər göstərilmiş, bu da müvafiq olaraq xidmətlərin ümumi həcminin 24,5 və 75,5 faizini təşkil edib.

2023-cü ilin yanvar-sentyabr aylarında ictimai iaşə dövriyyəsi 2022-ci illə müqayisədə real ifadədə 21,1 faiz artaraq 5544,1 min manat olub.

Özəl sektorda göstərilən iaşə xidmətlərinin 23,7 faizi hüquqi şəxs statuslu müəssisələrin, 76,3 faizi isə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların iaşə fəaliyyəti nəticəsində formalaşıb.

2023-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkələrindən əhaliyə 181967,5 min manatlıq və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 0,2 faiz çox istehlak malları satılıb.

2023-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının həcmi artaraq 108659,3 min manat, qeyri-ərzaq mallarının həcmi artaraq 73308,2 min manat olub.

Ticarət dövriyyəsinin həcmində ərzaq məhsulları, içki və tütün məmulatları və qeyri-ərzaq mallarının xüsusi çəkiləri müvafiq olaraq 59,7 və 40,3 faiz təşkil etmişdir. Hesabat dövrünün sonuna pərakəndə ticarət şəbəkələrində mal ehtiyatlarının qalığı 6592,4 min manat o cümlədən hüquqi şəxslər üzrə 1051,6 manat, fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə 5540,8 min manat olub.

2023-cü ilin yanvar-sentyabr aylarında nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fərdi sahibkarlar tərəfindən əhaliyə 3297,7 min manatlıq xidmət göstərilmiş və 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz az olub. Avtomobil nəqliyyatı ilə 2023-cü ilin yanvar-sentyabr aylarında 3687 min nəfər sərnişin, 871 min ton yük daşınmış və 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə sərnişin dövriyyəsi 18,5 faiz, yük dövriyyəsi 108,7 faiz artıb.

2023-cü ilin yanvar-sentyabr aylarında nəqliyyat sektorunda məhsul buraxılışı (fiziki şəxslər üzrə cəmi) 2665,0 min manat olmuş, o cümlədən yük daşınması üzrə 272,9 min manat, sərnişin daşınması üzrə isə 2392,1 min manat təşkil etmişdir. 2022-ci ilin eyni dövrü ilə müqayisədə cəmi məhsul buraxılışı 2,9 faiz, o cümlədən sərnişin daşınması üzrə 7,6 faiz, yük daşınması üzrə isə 2,8 faiz çox olub.

2023-cü ilin yanvar-sentyabr aylarında informasiya və rabitə sektorunda təsərrüfat subyektlərinə və əhaliyə 522,2 min manatlıq xidmət göstərilmiş, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 2,9 faiz və ya 15,7 min manat az olub.

***Cəlil Vəlimmədov, Ucar Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi***

# İqlim dəyişikliyinin meşələrə təsiri

***Planetimizin qlobal ekoloji problemlərindən biri olan iqlim dəyişikliyi digər sahələrdə olduğu kimi, meşə ekosistemlərinə də təsirsiz ötüşmür.***



Bu təsirlər özünü tez və ya da gec göstərə bilir. Zərərverici həşəratların sayının çoxalması, meşə yanğınlarının artması, invaziv növlərin daha geniş ərazilərdə yayılması kimi hallar özünü daha tez göstərir. Xüsusən də uzun sürən quraqlıqlar ağacların zəifləməsinə və nəticədə zərərverici həşəratların ciddi mənfi təsirinə məruz qalmasına səbəb olur.

"Unikal" xəbər verir ki, bunu Meşələrin İnkişafı Xidmətinin rəsmisi Vahid Fərzəliyev bildirib.

Xidmət rəsmisinin sözlərinə görə, iqlim dəyişiklikləri meşə biomüxtəlifliyinə də ciddi təsir göstərir. Ağacların fenoloji xüsusiyyətlərində, növ tərkibində, əsas meşə əmələgətirən cinslərin hündürlük zonaları üzrə yayılmasında, areallarında bu fərqlər müşahidə olunur. Qiymətli cinslərin daha az qiymətli cinslərlə əvəz olunması prosesi sürətlənir, təbii bərpa zəifləyir, beləliklə meşələrin kəmiyyət və keyfiyyət göstəriciləri dəyişərək məhsuldarlığı azalır.

"İqlim dəyişikliyinin təsirlərinin azaldılmasında əsas prioritet sahələrdən biri meşələrin bərpası, yeni yaşıllıqların salınmasıdır ki, buna nail olmaq üçün ölkəmizdə irimiqyaslı ağacəkmə aksiyaları keçirilir, yaşıllıq sahələri genişləndirilir".

UNI-40_27 IYUI-QARA.qxd 11/16/2023 10:10 PM Page 14



# Rayonlarda meliorativ işlər davam etdirilir

***Çaylarda məcratəmizləmə və bəndbərkitmə işləri davam etdirilir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Azərbaycan Meliorasiya Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin tabeliyində olan Kür-Araz Çaylarında Bəndlərin İstismarı İdarəsi tərtib olunmuş plana uyğun olaraq bir-neçə çayda məcratəmizləmə və bəndbərkitmə işlərini davam etdirir.***

Çaylarda yarana biləcək sel təhlükəsinin qarşısını almaq və qabaqlayıcı tədbirlər görmək məqsədilə hazırda Göyçay çayında mühafizə bəndlərinin təmiri və məcratəmizləmə işləri həyata keçirilir. Bu işlərin görülməsi üçün Göyçay çayının məcrasına xeyli sayda texnika cəlb olunub. İlin əvvəlindən bu vaxta qədər cari təmir planları əsasında 38 km-ə yaxın məsafədə mühafizə bəndlərinin təmiri, 90 km-dən artıq qayakəsmə işləri və 11 km-ə yaxın uzunluqda məcra təmizlənməsi işləri həyata keçirilib.




Ümumiyyətlə, idarənin fəaliyyəti xidməti ərazilərində yaşayış məntəqələrini, xalq təsərrüfatı obyektlərini sel və daşqın sularından qorumaqdan ibarətdir. Vəzifəsi isə balansında olan torpaq mühafizə bəndlərini daim nəzarətdə saxlamaq, aşınma, çökmə, sürüşmə hallarında təmir-barpa işləri aparmaq, kənar müdaxilələrdən qorumaq, selyuma proseslərini nəzarətdə saxlamaq, qarşısını almaq, balansında olan çay məcralarını lildən təmizləməkdən ibarətdir. Hazırda idarənin texnikaları bu işləri Girdimançayda da davam etdirir. Bundan başqa bu il əsaslı təmir planına hesabına mühafizə bəndlərinə təhlükə yarana biləcək yerlərdə Zərdab, Sabirabad, Salyan və Neftçala rayonları ərazisində Kür çayında qaya uçmalarının qarşısını almaq məqsədilə 1854 paqonometr uzunluğunda daş-betonla sahilbərkitmə işlərinə başlanıb. Bu işlərin yerinə yetirilməsinə 19 ədəd ekskovator, 15 ədəd buldozer, 20 ədəd yüküözüboşaldan maşınlar istifadə edilib.

Qeyd edək ki, Kür-Araz Çaylarında Bəndlərin İstismarı İdarəsi respublikanın 12 rayonunda - Qazax, Zərdab, Ucar, Ağcabədi, Kürdəmir, İmişli, Saatlı, Sabirabad, Şirvan, Hacıqabul, Salyan və Neftçala rayonlarında idarənin xidməti ərazisinə daxil olan ərazilərdə fəaliyyət göstərir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Baş Mil-Muğan Kollektoru İstismarı İdarəsi 1994-cü ildən fəaliyyət göstərir. İdarənin yaranmasında əsas məqsəd Mil-Qarabağ və Muğan-Salyan düzlərinin suvarılan torpaqlarından sızan qrunt, sel və məişət sularının Baş Mil-Muğan Kollektoru vasitəsilə maneəsiz, heç bir enerji sərf etmədən öz axını ilə Xəzər dənizinə axıtmaqdır. Bu məqsədlə hazırda kollektorlarda lildən təmizləmə işləri həyata keçirilir. İlin əvvəlindən bu vaxta qədər Salyan və Neftçala rayonları ərazisində kollektor drenaj şəbəkəsi ümumi olaraq 130 km məsafədə lildən təmizlənib. Həmçinin hidrotexniki qurğuların da cari təmiri yerinə yetirilib. İdarə tərəfindən fermerlərin əkin sahələrinin yaxınlığından keçən kollektorlarda daim lildən təmizləmə işləri həyata keçirilir ki, bunun da nəticəsi olaraq həmin torpaqlar münbitləşir və yenidən əkin üçün yararlı hala gətirilir. Əvvəllər şoranlaşmaya məruz qalan torpaqlarda indi müxtəlif növ kənd təsərrüfatı bitkiləri əkilir. Baş Mil-Muğan Kollektoru İstismarı İdarəsi bir-neçə istiqamətdə kollektorların lildən təmizlənməsini davam etdirir. Bu işlər hazırda cənub kollektor sistemlərində aparılır. Bundan başqa magistral kollektor üzərində 3 nasos stansiya istismar olunur. Bu nasos stansiyalarda 8 aqreqat vardır ki, hazırda onlar da saz vəziyyətdə saxlanılır.

Dilqəm Şərifov bildirib ki, Zərdabda rayonun bir-neçə istiqamətində torpaq məcralı kanallar lildən təmizlənir. Bu işlər Zərdab Suvarma Sistemləri İdarəsinin texnikaları vasitəsilə həyata keçirilir. Bununla da suvarma suyunun maneəsiz axını təmin olunur. Bundan başqa idarə tərəfindən su itkisinin qarşısının alınması istiqamətində də hər il plana uyğun olaraq torpaq məcralı kanallar beton üzlüyə alınır. Bu proses rayon ərazisindən keçən Məlikmudlu kanalında aparılır. Hazırda kanalın beton üzlüyə alınması üçün məcrası hazırlanır. Zərdab Suvarma Sistemləri İdarəsi balansında olan 42 min hektardan artıq əkin sahəsini mexaniki üsulla suvarır ki, bunun üçün 69 ədəd nasos stansiyasından və həmin nasos stansiyalarda yerləşən 110 aqreqatın gücündən istifadə edir. Rayonda əkin sahələrinin suvarılması əvvəlki illərdə olduğu kimi 2023-cü ildə də uğurla aparılıb. Növbəti suvarma mövsümündə də bu prosesi davam etdirmək üçün cari təmir işlərinə başlanılıb. Nasos aqreqatları, o cümlədən kanallar üzərində olan hidrotexniki qurğular saz vəziyyətə gətirilib.

Dilqəm Şərifov bildirib ki, Xızı rayon Suvarma Sistemləri idarəsi yaz suvarma mövsümünə hazırlaşır. Bu məqsədlə plan qrafikə uyğun olaraq rayonda kanallar lil və kol-kosdan təmizlənir, hidrotexniki qurğular cari təmir edilir. Məlumat üçün bildirək ki, son illər Xızı rayonunda görülən meliorativ tədbirlər nəticəsində 9989 hektar sahə əkin dövriyyəsinə cəlb edilib. Belə ki, əvvəllər rayonda suvarılan sahələr cəmi 2970 hektar idi. Ölkə başçısının sərəncamı əsasında Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində bu gün rayon suvarılan sahələr 12959 hektar təşkil edir. Həm əvvəllər mövcud olan həm də əkin dövriyyəsinə yeni cəlb olunan sahələrdə suvarma təminatını yaxşılaşdırmaq məqsədi ilə 327 km uzunluğunda kanallar çəkilib. Bu kanalların 102 km-i açıq, 225 km-i isə qapalı tiplidir. Kanallar üzərində 1899 ədəd hidrotexniki qurğu quraşdırılıb. Onu da qeyd edək ki, Xızı rayon Suvarma Sistemləri İdarəsi tərəfindən rayonda təsərrüfat sahiblərinin vaxtında və itkisiz suvarma suyu ilə təmin edilməsi məqsədi ilə ötən il torpaq məcralı 4300 metr uzunluğunda kanal qapalı boru kanalla əvəz edilib. Bu işlər cari ildə də davam etdirilir. Görülən tədbirlərin nəticəsidir ki, hazırda fermerlər rahatlıqla sahələrini suvardıqlarını bildirirlər. Bu isə onların bol məhsul əldə etməsinə imkan yaradır.

*Hüseyn İsgəndərov*

# Dövlət Xidmətində QHT nümayəndələri ilə görüş keçirildi



***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aparatında "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı dəyirmi masa keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə Beynəlxalq Şəffaflıq Təşkilatının Azərbaycan Milli Bölməsi - "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin İcraçı direktoru, "Konsitusiya" Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev, Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri Əhməd Abbasbəyli, "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri Hafiz Səfixanov, Media və Mülki Cəmiyyətə Doğru İctimai Birliyinin sədri Xanoğlan Əhmədov, "Qarabağ Qaziləri" İctimai Birliyinin idarə heyətinin üzvü Rey Kərimoğlu və Beynəlxalq Avrasiya Media-nın baş redaktoru Vüsalə Balayeva iştirak edib.

Dəyirmi masada Dövlət Xidmətində ictimai iştirakçılığın tətbiqinin genişləndirilməsi, korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq, korrupsiyaya qarşı mübarizə ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılması məsələləri müzakirə edilib. Görüşdə Milli Fəaliyyət Planının aidiyyəti bəndlərinin icrası haqqında ətraflı məlumat verilib, o cümlədən Xidmətdə korrupsiya ilə mübarizə sahəsində görülən işlər diqqətə çatdırılıb.

Tədbir qarşılıqlı diskussiya şəklində davam edib və mövzu ilə bağlı vətəndaş cəmiyyəti nümayəndələrinin təklifləri dinlənilib.

# 2023-cü ilin 9 ayında Yevlaxda "Ümumi məhsul və əhalinin gəlirləri" statistikası

***2023-cü ilin yanvar-sentyabr aylarında şəhər iqtisadiyyatının əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrünə nisbətən 16,5 faiz və ya faktiki qiymətlərlə 44499,2 min manat artaraq 314591,0 min manat olmuşdur. 2022-ci ilin müvafiq dövründə bu göstərici 270091,8 min manat təşkil edib.***

ÜMB-ın 56,7 faizi və ya 178366,7 min manatı istehsal, 43,3 faizi və ya 136224,3 min manatı isə xidmət sahələrində yaranıb.

Keçən ilin müvafiq dövründə istehsal 142959,7 min manat, xidmət isə 127132,1 min manat təşkil edib.

Mal və xidmətlərin faktiki qiymətlərlə buraxılışı sənaye sahəsində 21200,7 min manat və ya ümumi məhsul buraxılışının həcmində xüsusi çəkisi 6,7 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq 119114,6 min manat və ya 37,9 faiz, tikintidə 38051,4 min manat və ya 12,1 faiz, nəqliyyat və anbar təsərrüfatında 6024,5 min manat və ya 1,9 faiz, informasiya və rabitədə 1827,5 min manat və ya 0,6 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri 128372,3 min manat və ya 40,8 faiz olub.

*Yevlax Şəhər Statistika İdarəsinin rəisi*
*Saleh Cəfərov*

# Ucarda kənd təsərrüfatı necə inkişaf edib?

***2023-cü ilin oktyabrın 1-i vəziyyətinə rayon üzrə 49685 baş iribuynuzlu mal-qara, o cümlədən 30379 baş inək və camış, 50187 baş qoyun və keçi mövcud olmuşdur. 2022-ci ilin oktyabrın 1-nə nisbətən iribuynuzlu mal-qaranın sayı 9577 baş (16,2 faiz), o cümlədən inək və camışların sayı 2958 baş (8,9 faiz), qoyun və keçilərin sayı 5371 baş (9,7 faiz) azalıb.***

Keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-sentyabr aylarında ət istehsalı 13,8 faiz azalaraq 16336,2 ton, süd istehsalı 2,0 faiz artaraq 52433,9 ton, yumurta istehsalı 0,5 faiz artaraq 27907 min ədəd, yun istehsalı 4,3 faiz artaraq 146,9 ton olub.

*Ucar Rayon Statistika İdarəsinin rəis müavini*
*Şakir Qasımov*

UNI-40_27 IYUI-QARA.qxd 11/16/2023 10:10 PM Page 15



# Gürcüstanda vitse-spikerin mandatı əlindən alınıb



***Gürcüstan parlamenti hakim "Gürcü arzusu - Demokratik Gürcüstan" partiyasından olan vitse-spiker David Sergeyenkonun mandatını əlindən alıb.***

"Unikal" xəbər verir ki, buna səbəb David Sergeyenko prezident Salome Zurabişvilinin impiçmenti zamanı iclasda iştirak etməməsi olub.

Mandatın alınmasının lehinə 78, əleyhinə 2 nəfər səs verib.

"Davidə parlamentdə fəaliyyətinə görə minnətdarlıq bildiririk və gələcək işlərində uğurlar arzulayırıq", - Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvili səsvermədən sonra deyib.

# İsrail ordusu Qəzza zolağında limana nəzarəti ələ keçirib

***İsrail Müdafiə Qüvvələrinin ( döyüşçüləri Qəzza zolağında Fələstinin radikal HƏMAS hərəkatı tərəfindən terror məqsədləri üçün istifadə edilən limana əməliyyat nəzarəti həyata keçirib.***

"Unikal" xəbər verir ki, bu barədə İsrail Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Mühəndislər Korpusunun və Hərbi Hava Qüvvələrinin üzvlərinin də iştirak etdiyi əməliyyatda HƏMAS-ın hücumlar üçün istifadə etdiyi 10 tunel şaftı və 4 struktur məhv edilib. İsrail hərbçiləri 10 silahlını zərərsizləşdirib.

İDF iddia edir ki, HƏMAS limandan öz dəniz qüvvələri üçün təlim bazası kimi terror hücumlarını planlaşdırmaq və həyata keçirmək üçün istifadə edib, eyni zamanda mülki və Qəzza liman gəmilərini hədəfə alıb.

*Gülayə Mecid*

# "Ermənistan bunun üçün KTMT-yə rəsmi müraciət etməyib" - Sidorov



***Ermənistan qurumdan çıxmaq üçün KTMT-yə rəsmi müraciət etməyib.***

"Unikal" xəbər verir ki, bu barədə KTMT-nin Birləşmiş Qərargah rəisi Anatoli Sidorov bildirib.

"Ermənistan rəhbərliyinin, o cümlədən təşkilatın rəsmi açıqlaması olmayıb. Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxması barədə heç bir açıqlama verilməyib, bununla bağlı heç bir sənəd olmayıb, şəxsən mən onları görməmişəm", - Sidorov Moskvada keçirilən mətbuat konfransında deyib.

Onun sözlərinə görə, təşkilat daxilində KTMT-nin Qafqaz regionuna marağını itirdiyi və ya Ermənistanı tərk etməyi planlaşdırdığı barədə söhbət yoxdur: "Düşünürəm ki, bizim müdrik dövlət başçılarımız Ermənistan Respublikasının üzləşdiyi çətinlikləri həll etmək üçün bir yol tapacaqlar".

*Ağarza Elçinoğlu*

# Rusiya MN müharibənin bitəcəyi tarixi açıqladı

***Rusiya müdafiə nazirinin müavini Aleksandr Fomin bildirib ki, Ukraynada hərbi xüsusi əməliyyat məqsədlərinə tam çatana qədər davam edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin nümayəndəsi "SMOA Plus"ın İndoneziyada keçirilən 10-cu iclasında deyib. "Xüsusi hərbi əməliyyat qarşıya qoyulan məqsədlərə tam nail olunana qədər davam edəcək. Avropada yenidən baş qaldıran nasizm və Ukraynada rusdilli əhalinin soyqırımına son qoyulacaq", - Fomin bildirib.

Onun sözlərinə görə, Ukraynada münaqişənin gərginləşməsinə görə məsuliyyət ABŞ, eləcə də onun Avropa və Asiya müttəfiqlərinin üzərinə düşür.

**ELAN**

**Heydərov Ziya Fikrət oğluna verilmiş 1017049A nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

# Sülh müqaviləsi niyə imzalanmır? - Paşinyan səbəbi açıqladı

***2024-cü ilin büdcəsi ilə müdafiə sektorunun xərcləri iki dəfə artırılacaq.***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan bu gün parlamentdə deyib. O bildirib ki, bu, müharibəyə deyil, sülhə hazırlıqdır: "Əminəm ki, bütün qonşu ölkələrimiz əmindirlər ki, bizim heç kimə hücum etmək niyyətimiz yoxdur və bu baxımdan silahlı qüvvələrimizin nailiyyətləri ilə bağlı səslənən narahatlığı səmimi hesab etmirəm. Ordunu gücləndirmək hər bir suveren dövlətin borcudur ki, biz bunu edirik. Son 10 ildə Azərbaycanın müdafiə xərcləri Ermənistanın eyni göstəricisindən orta hesabla 3 dəfə çox idi və indi də belədir".

"Biz dövlətimizin və dövlətçiliyimizin funksional əhəmiyyətini yenidən qiymətləndirmək zərurəti ilə üzləşmişik" - deyən Nikol Paşinyanın sözlərinə görə, həmin funksional əhəmiyyətin yenidən qiymətləndirilməsinin nəticəsi olmalıdır: "Ermənistan onun hüdudlarından kənarda hazırlanmış planları həyata keçirmək üçün platforma və ya forpost deyil, öz vətəndaşlarının təhlükəsizliyini, rifahını və xoşbəxtliyini təmin etmək vasitəsidir. Dövlət sırf həmin məqsədləri həyata keçirməklə liderlik etməlidir".

Paşinyan qeyd edib ki, maraqlar sisteminin zirvəsi Ermənistanın iqtisadi inkişafıdır: "Sülh gündəmi bu iki zirvə görüşünə xidmət etmək məqsədi daşıyır. Bu baxımdan, yaxın aylarda Azərbaycanla sülh müqaviləsi imzalamaq üçün bizim siyasi iradəmiz sarsılmaz olaraq qalır, təbii ki, Ermənistanın həmin müqaviləni təkbaşına imzalaya bilməyəcəyi qeyd olunur və bunun üçün Azərbaycanın da imzası lazımdır".

Paşinyan bildirib ki, sülhün üç əsas prinsipi Azərbaycanla razılaşdırılıb. "Bəs ilin sonuna qədər və ya yaxın aylarda Azərbaycanla sülh müqaviləsinin imzalanması nə dərəcədə realdır? Sülhün üç əsas prinsipi, əslində, Azərbaycanla razılaşdırılıb və bu razılaşma Brüsseldə bizim danışıqlarımız zamanı baş tutub", - deyə Paşinyan qeyd edib.

O, müqavilənin niyə imzalanmadığını açıqlayıb: "Ümumilikdə səbəb tərəflər arasında etimadın olmamasıdır. Yaxın gələcəkdə daha bir neçə əsas məsələyə aydınlıq gətirilməlidir ki, bunlardan biri "Sülh müqaviləsi"nin məzmununun mümkün yanlış təfsirlərinin aradan qaldırılması üçün mexanizmin formalaşdırılması, digəri isə təhlükəsizlik təminatlarının yaradılmasıdır".

*Ağarza Elçinoğlu*

# Tayvan hakimiyyəti Baydenə təşəkkür etdi

***Tayvan hakimiyyəti ABŞ prezidenti Co Baydenə Çin prezidenti Si Cinpinlə danışıqlar zamanı Tayvan boğazında sülhün qorunmasının zəruriliyi ilə bağlı verdiyi açıqlamaya görə təşəkkür edib.***

"Unikal" xəbər verir ki, bu barədə adanın Xarici İşlər Nazirliyinin bəyanatında deyilir.

"Xarici İşlər Departamenti prezident Baydenin Çin lideri ilə görüşündən ABŞ-nin Tayvan boğazında sülh və sabitliyin qorunmasının zəruriliyi ilə bağlı qəti mövqeyini bir daha açıq şəkildə təqdir edir və alqışlayır", - deyə departamentin bəyanatında deyilir.

Sənəddə qeyd edildiyi kimi, Vaşinqton bu mövqeyini iri beynəlxalq tədbirlər zamanı, o cümlədən ABŞ, Cənubi Koreya və Yaponiyanın üçtərəfli sammiti zamanı, həmçinin G7 liderlərinin görüşü zamanı dəfələrlə bəyan edib.



Bayden və Si Cinpin çərşənbə günü San-Fransiskoda keçirilən Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq sammiti çərçivəsində görüşüblər. ABŞ administrasiyasının yüksək rütbəli rəsmisinin daha sonra brifinqdə dediyi kimi, ABŞ prezidenti danışıqlar zamanı "Birləşmiş Ştatların Tayvan boğazında davamlı olaraq sülh və sabitliyin qorunmasını müdafiə etdiyini" və status-kvonu dəstəklədiyini açıqlayıb. Bayden, həmçinin Çinə Tayvanda yanvarda keçiriləcək seçkilərə müdaxilə etməmək barədə xəbərdarlıq edib

*Gülayə Mecid*

# "Bu, Ermənistan üçün birbaşa təhlükədir" - Simonyan

***"Artsax (Qarabağda özünü buraxmış separatçı rejim - red.) dövlət qurumlarının saxlanması Ermənistan üçün birbaşa təhlükədir".***



"Unikal" xəbər verir ki, bunu Ermənistan Parlamentinin spikeri Alen Simonyan deyib.

"Artsax məsələsinin bitməsi nə deməkdir? Bizim Artsax ermənilərinin böyük problemi var. Hesab edirəm ki, bu, Ermənistanın təhlükəsizliyinə birbaşa təhdid və zərbədir", - deyə Simonyan qeyd edib. Xatırladaq ki, qondarma rejimin özünü buraxmış deputatları və müxalifəti Ermənistanda dövlət təsisatlarının mövcudluğunu qoruyaraq, "hökumət"in yaradılmasını təklif ediBlər.

*Ağarza*

UNI-40_27 IYUI-QARA.qxd 11/16/2023 10:10 PM Page 16



# “Raquf Orucov Kuboku” beynəlxalq cüdo turnirinə start verildi

***Dördüncü dəfə təşkil olunan ”Raquf Orucov Kuboku” beynəlxalq cüdo turnirinə start verilib.***




2016-cı il Aprel döyüşlərinin qəhrəmanları, əfsanəvi kəşfiyyatçı, şəhid polkovnik-leytenant Raquf Orucovun və silahdaşlarının xatirəsinə həsr olunmuş ənənəvi turnir Azərbaycan Cüdo Federasiyasının (ACF) və ”Judo Club 2012” İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilir.

Bakı İdman Sarayında gerçəkləşən yarışda Azərbaycan idmançıları ilə yanaşı, Türkiyə, Gürcüstan, Qazaxıstan, Tacikistan, Rusiya və Çexiyanı təmsil edən 200-ə yaxın cüdoçu iştirak edir.

Yarışın açılış mərasimi saat 15:00-da başlayacaq. Tədbirdə dövlət və hökumət nümayəndələri, parlament üzvləri, şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi veteranları, tanınmış idmançılar iştirak edəcəklər.

Qeyd edək ki, ənənəvi turnir 4 illik fasilədən sonra yenidən bərpa edilib. İlk dəfə 2017-ci ildə keçirilən turnir ardıcıl olaraq, 2018 və 2019-cu illərdə də təşkil olunub.

# Şahmatçılarımız Almaniyanı məğlub etdi

***Monteneqroda şahmat üzrə komandalar arasında Avropa çempionatında V turun oyunları keçirilib.***



Kişi şahmatçılardan ibarət Azərbaycan millisi hesabat turunda Monteneqronu məğlub edib.

Şəhriyar Məmmədyarovla Rauf Məmmədov heç-heçə oynayıb. Nicat Abasovla Vasif Durarbəyli qələbə qazanıb. Yekunda yığma 3-1 hesablı qələbəni aktivinə yazdırıb.

Qadın şahmatçılardan ibarət kollektiv isə Almaniya ilə üz-üzə gəlib. Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva və Gülnar Məmmədova turu heç-heçə ilə başa vurub. Birinci lövhədə Günay Məmmədzadənin Elizabet Petsi məğlub etməsi Azərbaycan komandasına 2,5-1,5 hesabı ilə qələbə qazandırıb.

V turdan sonra kişilərdən ibarət milli komanda 6 xalla 9-cu yerdədir. 9 xalı olan Azərbaycan və Fransanın qadın şahmatçılardan ibarət komandası turnir cədvəlinə başçılıq edir.

Bu gün Avropa çempionatında istirahət günüdür. Noyabrın 17-də keçiriləcək VI turda kişilərdən ibarət Azərbaycan yığması Yunanıstanla, qadın şahmatçılar isə Bolqarıstanla mübarizə aparacaq.

# "Zenit"in futbolçusu Bakıdan və "Neftçi" ilə oyundan danışdı

***”Mən heç vaxt Bakıda olmamışam. Baxmayaraq ki, Mahaçqalada oynayanda ora maşınla getmək imkanım olub. Amma bundan istifadə etməmişəm. Xoşbəxtlikdən və ya təəssüf ki, bilmirəm”.***

Qol.az xəbər verir ki, bu sözləri ”Zenit”in qapıçısı Mixail Kerjakov ”Sport-ekspress” qəzetinə verdiyi müsahibədə bildirib.

Noyabrın 18-də Bakıda ”Neftçi”yə qarşı keçiriləcək yoxlama oyunu ərəfəsində ölkəsinin mətbuatına danışan qapıçı bildirib ki, əgər vaxtları olsa Bakını gəzəcəklər: ”Düşünürəm ki, çox vaxtımız olmayacaq”.

Kerjakov bu ilin yayında beynəlxalq turnirdə ”Zenit”in ”Neftçi”yə 3:1 hesabı ilə qalib gəldiyi oyunla bağlı da danışıb: ”Həmin oyun çox da yadımda deyil. O zaman tribunada oturmuşdum. Kənardan görünən bu idi ki, ikinci hissədə “Neftçi” fiziki cəhətdən bir az geriləmişdi. Bakılıların da mövsümə hazırlıq dövrü idi. Görünür, onların fiziki hazırlığı heç də yüksək səviyyədə deyildi. Amma bu, normaldır. Bəzi taktiki məqamlar barədə isə heç nə deyə bilmərəm. Düzünü desəm, xatırlamıram”.



# PSJ-nin Mbappe qərarı

***PSJ futbolçusu Kilian Mbappe ilə bağlı qərarını verib.***

QOL.az xəbər verir ki, bu barədə AS məlumat yayıb. Paris təmsilçisi forvardına yeni müqavilə təklif etməyəcək. Klub artıq 24 yaşlı hücumçu ilə yolları ayırmağı düşünür.

Qeyd edək ki, Mbappe 2017-ci ildən PSJ-də oynayır. Onun Fransa klubu ilə hazırkı müqaviləsi 2024-cü ilin iyununa qədərdir. Bu mövsüm Mbappe PSJ-nin heyətində bütün turnirlərdə 15 oyun keçirib, 15 qol vurub və 1 qolun ötürməsini verib.

# “Qvardiola dünya futboluna zərər verib” - Messi

***“İnter Mayami”nin futbolçusu Lionel Messi İngiltərənin “Mançester Siti” klubunun baş məşqçisi Xosep Qvardiolanın dünya futboluna zərər gətirdiyi barədə fikirlərini bildirib.***



”Unikal” “Marca”ya istinadən xəbər verir ki, o, bu sözləri deyib:

“O, təkcə İspaniyada deyil, dünyada futbolu dəyişdirdi. Bu səbəbdən o, hətta futbola zərər də vurdu. İndi çoxları öz üslublarını inkişaf etdirmək əvəzinə onu təqlid etməyə çalışırlar”.

Qeyd edək ki, “Mançester Siti” İngiltərə Premyer Liqasının (APL) turnir cədvəlində 28 xalla birinci yerdədir.

# "Barsa" De Yonqla yeni müqavilə imzalayacaq



***”Barselona” klubu Frenki De Yonqla yeni müqavilə imzalayacaq.***

”Unikal” xəbər verir ki, danışıqlar 2024-cü ildə də davam edəcək. Hər iki tərəf müqavilənin müddətini uzatmağa istəklidir.

# Belçika - Azərbaycan oyununun hakimləri bəlli oldu

***Brüsseldə Belçika və Azərbaycan milli komandaları arasında keçiriləcək AVRO-2024-ün seçmə mərhələ oyununun təyinatları bəlli olub.***



”Unikal”a AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, qarşılaşma Macarıstandan olan hakimlər briqadasına tapşırılıb.

FIFA referisi Gerqo Boqara Teodoros Georgiu və Balaş Salai kömək göstərəcəklər. Dördüncü hakim funksiyasını Ferents Karako yerinə yetirəcək.

Qeyd edək ki, Azərbaycan yığması seçmə mərhələdə sonuncu matçını məhz Belçikaya qarşı keçirəcək. Noyabrın 19-da Brüsseldə reallaşacaq görüş Bakı vaxtı ilə saat 21:00-da başlayacaq. Final mərhələsinə vəsiqəni əvvəlki turlarda təmin edən “qırmızı şeytanlar” hazırda F qrupunda 17 xalla liderdir. Millimiz isə 4 xalla 4-cü pillədə qərarlaşıb.

# İki futbolçu "Neftçi" ilə matçı buraxacaq



***”Zenit”in iki futbolçusu - Mateo Kassyerra və Aleksandr Yeroxin ”Neftçi”yə qarşı keçiriləcək yoxlama matçını buraxmalı olacaq.***

Bu haqda komandanın baş məşqçisi Sergey Semak Rusiyanın ”Sport-ekpress” qəzetinə müsahibəsində deyib.

Həmin matç noyabrın 18-də Bakıda ”Neftçi Arena”da keçiriləcək. Oyun yerli vaxtla saat 21:00-da başlancaq.

S.Semakın sözlərinə görə, hücumçu Kassyerra zədəli olduğundan Kolumbiya millisinin də dügərgəsinə yollana bilməyib. Yarımmüdafiəçi Aleksandr Yeroxin də zədəli olduğundan ”Neftçi” ilə matçda iştirak edə bilməyəcək.